QƏRBİ
AZƏRBAYCAN
İCMASI



# QƏRBİ AZƏRBAYCAN: tarixi yaddaşımız





QƏRBİ
AZƏRBAYCAN
İCMASI

# QƏRBİ AZƏRBAYCAN: tarixi yaddaşımız

Bakı - 2025

“Qərbi Azərbaycan İcmasının kitabxanası”

İdeya müəllifi: s.e.d., professor Ə.M.Vəliyev

Tərtibçi: S.B.Hüseynov

Redaktor: f.ü.f.d., dosent Ə.Y.Ələkbərov

Rəyçilər: p.ü.e.d., profesor F.A.Rüstəmov
t.ü.f.d., dosent N.Y.Mustafa

Qərbi Azərbaycan: tarixi yaddaşımız.
Bakı, Elm və təhsil, 2025, ___ səh.

Qeyd: Kitabın üz qabığında Qərbi Azərbaycanın Loru mahalının Allahverdi rayonunda XIII əsrdə tikilmiş Sənain körpüsünün şəkli yerləşdirilmişdir.

© Qərbi Azərbaycan İcması, 2025

Bakı - 2025


Amasiya
Qızıl Qoç
Vorontsovka
Cəlaloğlu
Allahverdi
Barana
Hamamlı
Böyük Qarakilsə
Karvansara
Şəmsəddin
Düzkənd
Ərtik
Ağin
Abaran
Axta
Yelenovka
Çəmbərək
Talin
Əştərək
Kəvər
Ellər
Sərdarabad
Üçkilsə
İrəvan
Zəngibasar
Qəmərli
Basarkeçər
Qaranlıq
Vedi
Keşişkənd
Paşalı
Qarakilsə
Gorus
Qafan
Meğri
0
25
50 km

# MÜNDƏRİCAT


**QƏRBİ AZƏRBAYCAN: TARİXDƏN BUGÜNƏ.......6**

Qərbi Azərbaycan anlayışı, ərazisi və tarixi..............................6

İrəvan şəhərinin salınması....7

İrəvan xanlığı................................8

Qərbi Azərbaycan Rusiya imperiyası tərkibində................8

Qərbi Azərbaycanın coğrafiyası.......................................9

Qərbi Azərbaycanda əhali....11

İrəvan bölgəsi Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi............................................12

Qərbi Azərbaycanda etnik təmizləmə siyasətinin başlanğıcı..............13

**QƏRBİ AZƏRBAYCANDA TÖRƏDİLƏN SOYQIRIMI VƏ DEPORTASİYALAR....16**

1905-1906-cı illər qırğınları....16

1918-1920-ci illər soyqırımı.....17

Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvan şəhərinin ermənilərə verilməsi................21

Qərbi Zəngəzurun və digər ərazilərin Sovet Ermənistanına verilməsi.........................................22

Qərbi Azərbaycan Ermənistan SSR dövründə................................24

1948-1953-cü illər deportasiyası................................25

1987-1991-ci illər etnik təmizləmə mərhələsi................27

1980-ci illər deportasiyası nəticəsində azərbaycanlılara dəyən ziyanın miqyası.............31

## QƏRBİ AZƏRBAYCANDA ELM VƏ MƏDƏNİYYƏT..32

Qərbi Azərbaycanda elm və təhsil....................................................32

Qərbi Azərbaycan ziyalıları....34

Azərbaycan milli-mədəni irsinin–toponimlərinin məhvi..................................................40

## QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ UĞRUNDA MÜBARİZƏ...........................43

Heydər Əliyevin nitqlərində Qərbi Azərbaycan məsələsi....52

İlham Əliyevin nitqlərində Qərbi Azərbaycan məsələsi....70

İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə nitqi............105

“Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda II beynəlxalq konfransın iştirakçılarına...........123

## QƏRBİ AZƏRBAYCANLA BAĞLI TARİXİ, COĞRAFİ VƏ STATİSTİK MƏLUMATLAR..127

Qərbi azərbaycanlıların yaşayış məskənləri..................... 127

Qərbi Azərbaycanda Ermənistan tərəfindən dəyişdirilmiş rayon adları........136

İndiki Ermənistanın inzibati ərazi bölgüsü və əhatə etdiyi rayonlar................................138

Qərbi Azərbaycan mahalları, onlara daxil olan rayonlar və indiki Ermənistanda yerləşdiyi ərazi vahidi.....................................139

Azərbaycanın rayon və şəhərləri üzrə Qərbi azərbaycanlıların məskunlaşma statistikası.......141

# QƏRBİ AZƏRBAYCAN: TARİXDƏN BUGÜNƏ

"İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur."

Ümummilli Lider Heydər Əliyev

## Qərbi Azərbaycan anlayışı, ərazisi və tarixi

Tarixən azərbaycanlılar yaşayan ərazi şimaldan cənuba Böyük Qafqaz dağlarından indiki İranın Həmədan şəhərinə qədər, şərqdən qərbə isə Xəzər dənizindən indiki Türkiyənin sərhədlərinə qədər uzanır və müasir Ermənistan Respulikasının ərazisini tamamilə əhatə edirdi. Buna görə də qədim dövrlərdən soydaşlarımızın yaşadıqları və indiki Ermənistan ərazisi hesab edilən torpaqlar Qərbi Azərbaycan adlanır. Qərbi Azərbaycan adlanan coğrafi ərazinin bir hissəsi e.ə. IX əsrdə Azərbaycanda meydana gələn Manna dövlətinin tərkibində olmuşdur.Qərbi Azərbaycan ərazisi həmin vaxtdan etibarən Azərbaycanın ən mühüm coğrafi bölgələrindən birinə çevrilmişdir.

XV əsrdə Azərbaycanda mövcud olmuş Qaraqoyunlu dövləti zamanı (1410-1468) Qərbi Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsir edən hadisə baş vermişdir. Belə ki, 1441-ci ildə Qaraqoyunlu Cahanşahın (1436-1467) razılığı ilə erməni-qriqorian kilsəsinin mərkəzi Kilikiyadan (indiki Livan ərazisi) İrəvandan 20 kilometrlik məsafədə yerləşən Üçkilsəyə (Eçmiədzinə) köçürülmüşdür. Qafqazda ilk dəfə xristianlıq rəsmi din kimi Qafqaz Albaniyasında 313-cü ildə qəbul edilmişdir. 1441-ci ildə bütün ermənilərin Ali patriarxı və Katolikosunun taxtının köçürüldüyü kilsə də alban kilsəsi olmuşdur.

Həmin dövrdən qalan alqı-satqı aktlarından məlum olur ki, köçdən sonra erməni-qriqorian kilsəsi ətraf ərazilərdə torpaq sahibi olan müsəlmanlardan xeyli torpaq sahələri alaraq buraya erməniləri yerləşdirmişdir.

Üçkilsə Qaraqoyunlu dövlətindən sonra digər Azərbaycan dövlətləri – Ağqoyunluların (1468-1501), Səfəvilərin (1501-1736), Nadir şahın imperiyasının (Əfşarlar dövləti, 1736-1747) və İrəvan xanlığının (1747-1827) tərkibində olmuş, İrəvan xanlığının işğalı ilə Rusiya imperiyasının tərkibinə keçmişdir.

## İrəvan şəhərinin salınması

Orta əsr mənbələrində İrəvan şəhərinin adı Rəvan, İrəvan, Erevan kimi qeyd edilmişdir. Məşhur türk səyyah-coğrafiyaşünası Evliya Çələbinin yazdığına görə, Səfəvilər dövlətinin banisi Şah İsmayıl (1501-1524) İrəvanı və onun ətrafında yerləşən əraziləri özünə tabe etdikdən sonra 1502-ci ildə sərkərdəsi Rəvanqulu xana Zəngi çayının sahilində strateji əhəmiyyətli yerdə qala tikdirməyi tapşırmış və Rəvanqulu xan qalanın inşasını 7 ilə başa çatdırmışdır.

Həmin vaxtdan etibarən İrəvan şəhəri Qərbi Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamış və regionun digər torpaqlarını da öz ətrafında birləşdirmişdir.

Səfəvilər dövründə əsas inzibati vahid bəylərbəylik adlandırılmış, hakimləri və bəylərbəyləri yalnız azəbaycanlılar olan Çuxursəd bəylərbəyliyinin mərkəzi İrəvan şəhəri olmuşdur.

Osmanlı-Səfəvi müharibələrində (fasilələrlə 1514-1639-cu illər) Çuxursəd bəylərbəyliyi əsas hərbi istiqamətlərdən olmuşdur. 1590 (bu müqavilənin şərtlərinə əsasən Ərdəbil, Xalxal, Qaracadağ, Zəncan və Lənkəran istisna olmaqla bütün Azərbaycan torpaqları osmanlılara verildi) və 1724-cü il (bu müqaviləyə əsasən Osmanlı tərəfi Rusiyanın işğal etdiyi Xəzərboyu əyalətlərin Rusiyaya güzəşt edilməsini təsdiq etdi.

Rusiya tərəfi isə Qərbi Qafqazın və Cənubi Azərbaycanın Osmanlıya çatmasına etiraz etmədiyini bildirdi) İstanbul müqavilələrinə görə, İrəvan Osmanlı dövlətinin tərkibinə daxil olmuşdur. Osmanlı dövləti tərəfindən burada həyata keçirilən əhali qeydiyyatına əsasən əyalətin əhalisinin mütləq əksəriyyəti müsəlmanlar olmuşdur.
Daha sonra Nadir şah (1736-1747) 1735-ci ildə İrəvan əyalətini tutmağa nail olmuş və onu yaratdığı Əfşarlar dövlətinin tərkibinə daxil etmişdir. Nadir şah öldürüldükdən sonra onun imperiyası dağılmış, Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan ərazisində də ilk dəfə yeni dövlət qurumu – İrəvan xanlığı yaranmışdır.

## İrəvan xanlığı

İrəvan xanlığı (1747-1827) Azərbaycan tarixində xüsusi rola malik olmuşdur. İrəvan xanları bu dövlətin Azərbaycan ərazisi kimi qorunub saxlanmasında və idarə edilməsində böyük xidmət göstərmişlər.

Təsadüfi deyil ki, 1804-1813-cü illərdə baş vermiş rus-qacar müharibəsində Rusiya imperiyasının bütün cəhdlərinə baxmayaraq, xanlığı işğal etmək mümkün olmamışdır.
Yalnız 1827-ci il oktyabrın 1-də İrəvan şəhərində yaşayan ermənilərin xəyanəti nəticəsində İrəvan şəhəri işğal edilmiş, rus qoşunlarının komandanı, general İvan Paskeviç isə çar I Nikolayın fərmanı ilə "Paskeviç-Erivanski" tituluna layiq görülmüşdür. Rus işğalına qədər 15 mahaldan – Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Ağsaklı, Sərdarabad, Karbibasar, Abaran, Dərəçiçək və Göyçə mahallarından ibarət İrəvan xanlığının mərkəzi İrəvan şəhəri olmuşdur.

## Qərbi Azərbaycan Rusiya imperiyası tərkibində

10 fevral 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanmasından sonra Rusiya imperatoru

I Nikolay həmin il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının ərazisində qondarma "Erməni vilayəti"nin yaradılması haqqında fərman imzaladı. "Erməni vilayəti"nin ərazisində 1111 kənd mövcud olmuşdur ki, onlardan yalnız 62-də ermənilər yaşamış və yanız 14-nün adı ermənicə olmuşdur. Həmin ermənilər də yerli deyil, işğal prosesində köçürülənlər olmuşlar.

I Nikolay 1837-ci ildə Qafqaza səfəri zamanı İrəvana da getmiş, orada olarkən erməni əsilli vilayət rəisi Bebutovun azərbaycanlılara qarşı gerçəkləşdirdiyi qanunsuzluqlar ilə yerindəcə tanış olmuş və onu vəzifəsindən uzaqlaşdırmışdır.

"Erməni vilayəti"nin yaradılması özünü doğrultmamış, 1840-cı ildə Cənubi Qafqazın yeni inzibati quruluşu haqqında qəbul edilən qanunla bu qurum ləğv edilmişdir. "Erməni vilayəti"nin fəaliyyəti dövründə hər vasitə ilə azərbaycanlıların öz tarixi-etnik torpaqlarından deportasiyası və onların yerində Türkiyə və İrandan köçürülən ermənilərin məskunlaşdırılması siyasəti həyata keçirilmişdir.

"Erməni vilayəti"nin ləğvindən sonra da çar hakimiyyəti məqsədyönlü şəkildə İrəvanı Qafqazda ermənilərin mərkəzinə çevirmək siyasətini davam etdirmişdir. İrəvan şəhəri 1849-cu ildə yeni yaradılmış İrəvan quberniyasının mərkəzinə çevrilmişdir. Bu dövrdə də quberniyanın yerli əhalisi olan azərbaycanlıların sıxışdırılması, ermənilərin isə bu əraziyə köçürülməsi və onlar üçün əlverişli siyasi və iqtisadi mühitin yaradılması davam etdirilmişdir. Belə ki, 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşadığı halda, 1908-ci ildə onların sayı təxminən 1,3 milyon nəfərə çatmışdır. 1914-1916-cı illərdə Cənubi Qafqaza Osmanlı Türkiyəsi ərazisindən Osmanlıya xəyanət edib qaçan 350 min erməni yerləşdirilmiş, onların əksər hissəsi İrəvan şəhərinin və onun ətraf bölgələrinin ərazisində məskunlaşmışdır.

## Qərbi Azərbaycanın coğrafiyası

Geoloji quruluşu olduqca mürəkkəb olan Qərbi Azərbaycanda indi Ermənistan tərəfindən talan edilən zəngin mis-molibden, mis-pirit,

qızıl yataqları və müalicəvi mineral su bulaqları mövcud olmuşdur.

Ərazisi əsasən dağlıq, ən yüksək nöqtəsi Alagöz dağı (4090 m), ən aşağı nöqtəsi isə Debed dərəsi (375 m) olan Qərbi Azərbaycanın ərazisi əsasn subtropik zonada yerləşir, lakin dağlıq relyefinə görə müxtəlif iqlim tipləri ilə seçilir. Düz və dağətəyi hissələrin iqlimi quru, yayı isti və qışı mülayim soyuq olan kontinentaldır.

Ərazidən irili xırdalı 9500 çay keçir. Onlardan ən böyüyü Araz çayıdır. Burada 8 mindən çox təbii bulaq, 100-ə yaxın göl, o cümlədən Qafqazın ən böyük gölü olan Göyçə gölü yerləşir.

Çoxlu ilan növləri, çöl donuzu, cəngəllik pişiyi, ayı, canavar, çaqqal, ilan qartalı, imperator qartalı, saqqallı qartal, xəzər qar xoruzu, kəklik, cüyür, xallı maral yaşayan bu yerlərin heyvanat aləmi olduqca zəngindir.

Qərbi Azərbaycanda müxtəlif kənd təsərrüfatı məhsulları becərilən və iqlimi bir-birindən fərqlənən İrəvan-Çuxuru hövzəsi, Şirək, Loru-Pəmbək, Tavuş, Göyçə gölü hövzəsi, Dərələyəz, Zəngəzur təbii coğrafi bölgələri mövcuddur.

Bu ərazilərin yalnız 11 faizi 250-dən çox ağac və kol növünün bitdiyi meşələrlə örtülüdür. Əsas meşə yaradan növlər palıd, fıstıq, vələs və şam ağaclarıdır.

Bu ərazilərdə 150 bitki ailəsinə aid olan 3500-ə yaxın bitki növü bitir, onların 108-ə yaxın növü endemikdir. Buranın təbiəti bir çox meyvə ağacları – alma, armud, ərik, nar, əncir, qoz, müxtəlif giləmeyvə növləri və dərman bitkiləri ilə zəngindir.

Bitkiçilik təsərrüfatında üzümçülük daha böyük əhəmiyyət kəsb edir. Burada yetişdirilən üzüm sortları özünün şəkərliliyi və dadı ilə fərqlənir. Qiymətli üzümçülük plantasiyaları dəniz səviyyəsindən 1400 metr hündürlüyə qədər olan ərazilərdə salınır.

Hazırda Ermənistan tərəfindən istismar edilən Qərbi Azərbaycanda kənd təsərrüfatı üzrə ümumi məhsul gəlirinin 60%-i bitkiçilikdən, 40%-i isə heyvandarlıqdan əldə olunur.

Kənd təsərrüfatı üçün yararlı torpaqların əsas hissəsi Arazboyu, İrəvan Çuxuru və Şirək düzənlikləri ərazisində cəmləşmişdir.

Kənd təsərrüfatına yararlı torpaqlar ərazinin 46-47%-ni, əkin sahəsi cəmi 20%-ni, otlaq və biçənəklər isə 28%-ni təşkil edir.

## Qərbi Azərbaycanda əhali

Ermənilərin şovinist, etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycandakı Azərbaycan izləri dağıdılmış və yerlə-yeksan edilmiş, buranın əzəli sakinləri olan azərbaycanlılara qarşı ermənilər tərəfindən dəfələrlə soyqırımlar törədilmiş, onların izlərinin silinməsi siyasəti həyata keçirilmişdir.
Qərbi Azərbaycanın yerli əhalisi olan azərbaycanlılara qarşı 1905-1906, 1918-1920-ci illərdə erməni-daşnak hakimiyyətinin yürütdüyü soyqırımı aktları sovet hakimiyyəti bərqərar olduqdan sonra da davam etmiş, Azərbaycan xalqı öz tarixi torpağında Zəngəzur faciəsinə, 1948-1953-cü illərin deportasiyasına, 1987-1991-ci illərin etnik təmizlənməsinə məruz qalmışdır.

Əslində yuxarıda göstərilənlər bunu deməyə əsas verir ki, çar Rusiyasınının Azərbaycanı işğal etdiyi dövrdən tarixi torpaqlarımız qərbdən şərqə zaman-zaman azərbaycanlılardan təmizlənərək erməni əhalisinin məskəni edilmişdir. Azərbaycan xalqının Qərbi Azərbaycanda üzləşdiyi faciələrin sona qədər öyrənilməsinin labudlüyü Ümummilli Lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" və 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanları ilə təsdiqlənmişdir.
Rusiya imperiyasında ilk dəfə siyahıyaalma 1897-ci ildə olmuş, bu zaman İrəvan quberniyasının əhalisi də siyahıya alınmışdır. Bu siyahıyaalmada müəyyən dərəcədə təhriflər müşahidə olunmasına baxmayaraq həmin siyahılar bu günə qədər mühüm əhəmiyyətə malikdir.

Siyahıyaalmalara əsasən, Qərbi Azərbaycanda 1922-ci ildə azərbaycanlı əhalinin sayı 76.539 (9,8%) nəfər olmuş, bu say 1926-cı ildə 83.181 (9,4%) nəfər, 1937-ci ildə 124.434 (10,2%) nəfər, 1939-cu ildə 130.896 (10,2%) nəfər, 1959-cu ildə 107.748 (6,1%) nəfər, 1970-ci ildə 148.189 (5,9%) nəfər, 1979-cu ildə 160.841 (5,3%) nəfər, 1987-ci ildə 210.000 (6,4%) nəfər, 1989-cu ildə isə 1500 (0,001%) nəfər olmuşdur. Göründüyü kimi, Qərbi Azərbaycanda azərbaycanlı əhalinin sayı 1948-1953-cü illərin deportasiyasından sonra azalmış, 1987-ci ilə qədər isə yenidən artaraq 210 min nəfərə çatmışdır. 1987-1991-ci illərin deportasiyasının nəticəsində isə bu rəqəm 210 mindən 1500-ə qədər azalmış, qısa zaman sonra isə azərbaycanlılar tamamilə deportasiya edilmişdir.

Yuxarıda verilən statistik məlumatlar XX əsrdə Qərbi Azərbaycanda azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasətinin aparıldığını bir daha sübut edir.

## İrəvan bölgəsi Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi

Azərbaycan xalqının qədim zamanlardan formalaşmış zəngin mədəniyyətinin əsas mərkəzlərindən biri də Qərbi Azərbaycan, o cümlədən İrəvan şəhəri olmuşdur. Bu bölgənin ziyalıları elm və təhsilin, incəsənətin, ədəbiyyatın inkişafına zaman-zaman mühüm töhfələr vermişlər.

Rusiya imperiyasının müstəmləkə siyasətinə baxmayaraq, XIX-XX əsrin əvvəllərində təhsilin təşkilində, maarifçilik ideyalarının yayılması sahəsində Qərbi Azərbaycanda böyük uğurlar əldə edilmişdir. İrəvanın ilk qəza məktəbi – sonralar İrəvan Kişi Gimnaziyası adlandırılan və görkəmli Azərbaycan ziyalıları yetişdirmiş məktəb 1832-ci ildə açılmışdır. Həmçinin dünyəvi təhsilin inkişafında 1881-ci ildə fəaliyyətə başlamış İrəvan Müəllimlər Seminariyasının xüsusi rolu olmuşdur. Həmin ildə İrəvan qəzasındakı Uluxanlı rus-tatar məktəbinin bünövrəsi qoyulmuşdur.

Azərbaycan xalqı bu ərazilərdə folklorun və ədəbiyyatın, aşıq sənətinin, musiqinin, təsviri sənətin, xalçaçılığın və s. inkişafında da xüsusi rola malik olmuş, burada özünəməxsus güclü məktəblər (Göyçə aşıq məktəbi, İrəvan xalçaçılığı və s.) formalaşmış və görkəmli nümayəndələr yetişmişdir.

Qərbi Azərbaycanda digər mədəniyyət sahələri kimi memarlıq da uzun və zəngin inkişaf yolu keçmiş, öz yüksək inkişaf səviyyəsinə gəlib çatmışdır. Burada Sərdar məscidi, Rəcəb paşa məscidi, Təpəbaşı məscidi, Zal xan məscidi, Göy məscid kimi dini memarlıq abidələri, eyni zamanda, tarixi əhəmiyyətə malik çoxsaylı istehkam qurğuları, qalalar, saraylar, körpülər və digər mülki abidələr tikilmişdir.

1882-ci ildə İrəvanda Azərbaycan teatrı meydana gəlmişdir. Bu illərdə İrəvanın kasıb müsəlman tələbələrinə kömək məqsədilə Azərbaycan türkcəsində "Tamahkarlıq düşmən qazandırır" pyesi səhnələşdirilmiş və bu hadisə teatr sənətinin inkişafına ciddi təsir göstərə bilmişdir. Sonralar İrəvan Azərbaycan Dövlət Teatrına çevrilən mədəniyyət ocağının da taleyi çətin olmuş, 1988-ci ildə Ermənistandan azərbaycanlıların deportasiyası genişlənən zaman qastrolda olan teatr sonrakı fəaliyyətini Azərbaycanda davam etdirməli olmuşdur.

İrəvanda azərbaycandilli mətbuatın fəaliyyəti də mühüm hadisə olmuşdur. İlk belə mətbu orqanlar 1914-cü ildə işıq üzü görən "Lək-lək" satirik jurnalı və 1917-ci ildə nəşrə başlayan "Bürhani-həqiqət" jurnalıdır.

Beləliklə, Qərbi Azərbaycan mədəniyyəti bütövlükdə Azərbaycan mədəniyyətinin önəmli qollarından birini təşkil etmiş, onun zənginləşməsində əhəmiyyətli rol oynamışdır.

## Qərbi Azərbaycanda etnik təmizləmə siyasətinin başlanğıcı

Bu gün Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan ərazisi tarix boyu Azərbaycanın ayrılmaz hissəsi olmuş və ən qədim dövrlərdən bəri burada Azərbaycan xalqının formalaşmasında

iştirak etmiş müxtəlif türk tayfaları yaşamışdır.

Bu coğrafiyadakı soydaşlarımızın qaçqınlıq tarixi 1801-ci ildən başlamışdır. 1801-ci il iyulun 13-də çar Rusiyası ordusunun general-mayoru Lazarev Qafqaz qoşunlarının komandanı Knorrinqə göndərdiyi raportunda göstərmişdir ki, çar ordusunun indiki Gürcüstan ərazisinin bir hissəsinin işğalı nəticəsində Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min nəfər türk-müsəlman əhali bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığınmışdır.

Ermənilərin Şimali Azərbaycan xanlıqlarının ərazilərinə kiçik dəstələrlə axını 1801-ci ildə rus qoşunlarının İrəvan xanlığına tabe olan Pəmbək əyalətinə daxil olmasından sonra azərbaycanlıların bölgəni tərk etmələri və Türkiyə ərazisindən gələn ermənilərin həmin bölgədə məskunlaşdırılması dövründən başlanmışdır.

1807-ci ildə rus qoşunlarının Qars paşalığına hücumundan sonra Rusiyanın təbəəliyini qəbul edən 500 erməni ailəsi Pəmbək distansiyasına, 170 ailə isə Şörəyel distansiyasına köçürülmüşdür.

1804-cü il yanvarın 3-də Rusiya imperiyası tərəfindən Gəncə xanlığının işğalı, 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiya imperiyasının tərkibinə keçməsini rəsmiləşdirən Kürəkçay müqaviləsinin imzalanması bölgədə rus-erməni mövqelərini daha da möhkəmləndirmişdir.

1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında imzalanan Gülüstan müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqları Rusiyanın tərkibinə qatılmışdır.

İkinci Rusiya-İran (1826-1828) müharibəsinədək ümumilikdə Pəmbək-Şörəyel distansiyasına Türkiyədən 4675 erməni ailəsi köçürülmüşdür.

1826-cı il iyulun 26-da Rusiya ilə İran arasında müharibə yenidən başlanmış və ruslar 1827-ci il iyunun 26-da Naxçıvan şəhərini, sentyabrın 20-də Sərdarabad qalasını, oktyabrın 1-də isə İrəvan qalasını işğal etmişdir.

İranın içərilərinə doğru irəliləyən rus qoşunları 1828-ci il fevralın 10-da İran dövlətini Türkmənçay müqaviləsini imzalamağa, İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya

güzəştə getməyə məcbur etmişdir.

Müqaviləyə əsasən rus qoşunlarının Cənubi Azərbaycandan geri çəkilmə prosesi martın 8-dən etibarən Marağadan başlandığı üçün, ilk növbədə orada yaşayan ermənilərin köçürülməsi nəzərdə tutulmuşdur. Köçürmə işlərinə erməni əsilli polkovnik Lazarev (Yeğiazar Lazaryan) rəhbərlik etmişdir.

1829-cu il sentyabrın 14-də Rusiya ilə Osmanlı arasında imzalanan Ədirnə müqaviləsinə əsasən Axılkələk və Axıska bölgələri Rusiyanın tərkibinə keçmiş, bundan sonra Osmanlı ərazisindən də xeyli erməni Azərbaycan torpaqlarına köçürülmüşdür.

Paskeviçin dəvəti ilə statist İvan Şopen 1829-1832-ci illərdə "Erməni vilayəti"ndə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) ilk kameral siyahıyaalma keçirmişdir. İ.Şopenin statistik məlumatlarından aydın olur ki, İrandan köçürülən ermənilər isə İrəvan xanlığının 119 kəndində, Naxçıvan xanlığının 72 kəndində, Osmanlıdan köçürülən ermənilər İrəvan xanlığının 128 kəndində, Naxçıvan xanlığının 4 kəndində yerləşdirilmişlər. Köçürülmələr nəticəsində İrəvan xanlığının ərazisində 50, Naxçıvan xanlığının ərazisində isə 35 kənddə azərbaycanlılarla ermənilər qarışıq yaşamağa başlamışdır.

Rus tədqiqatçısı N.Şavrov yazır: "1826-28-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi köçürmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik, hansı ki, orada erməni əhalisi cüzi idi. Onları həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axılkələk qəzalarında yerləşdirdik. Onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq dövlət torpağı ayrılmış, 2 milyon rubldan artıq məbləğdə müsəlmanlardan xüsusi mülkiyyət torpaqları satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırılmışdı. Nəzərə almaq lazımdır ki, 124 min nəfər rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır."

Qərbi Azərbaycan ərazisində etnik təmizləmə və bu ərazilərin ermeniləşdirilməsi siyasəti XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin sonlarına qədər
davam etdirilmişdir.

## QƏRBİ AZƏRBAYCANDA TÖRƏDİLƏN SOYQIRIMI VƏ DEPORTASİYALAR

### 1905-1906-cı illər qırğınları

XX əsrin əvvəllərində Cənubi Qafqazda, xüsusən də Qərbi Azərbaycan ərazisində azərbaycanlılara qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri "təcrübəyə" əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan "erməni məsələsi" sonralar Şərqi Anadoluda ermənilərə muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi.

Həmin illərdə Rusiya, İngiltərə və Fransanın yardımı, həmçinin ermənilərin "Armenakan", "Hnçak" və "Daşnaksutyun" partiyalarının təşkilatçılığı ilə etnik ermənilər Osmanlıda üsyana təhrik edilirdilər.

Ermənilərin Türkiyədə 1894-1896-cı illərdə törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza mühacirət etmişdir.

1905-ci ildə Rusiyada hakimiyyət əleyhinə üsyanların və iğtişaşların baş verməsi, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda ermənilərin əlinə yeni fürsət vermişdi.

Bu qarışıqlıqdan məharətlə istifadə edən ermənilər Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə erməni dəstələrini silahlandıraraq 1905-ci ildə Cənubi Qafqazda azərbaycanlıların sıx yaşadıqları ərazilərə silahlı hücumlar etməyə, etnik təmizləmə həyata keçirməklə həmin ərazilərdə Türkiyədən qaçıb gələn erməni ailələrini məskunlaşdırmağa və özlərinin say üstünlüyünə nail olmağa başladılar.

1905-ci il fevralın 6-da Sabunçu qəsəbəsinin sakini Ağarza Babayevin Bakının mərkəzindəki erməni kilsəsinin qarşısında ermənilər tərəfindən öldürülməsi ilə şəhərdə və ətraf qəsəbələrdə qırğınlar başladı.

Ermənilər fevralın 20-də İrəvan şəhərində ilk qırğınlar törətdilər və bu qırğınlar 1905 və 1906-cı illər boyu davam etdi.

Ümumiyyətlə, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 15 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Novo-Bəyazid, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) kütləvi qırğınlar törətdilər. 1905-1906-cı illər qırğınları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmişdir ki, onların da 200-ü azərbaycanlıların yaşayış məntəqələri olmuşdur.

## 1918-1920-ci illər soyqırımı

Hələ 1917-ci ilin mayında erməni burjuaziyasının liderləri milli hərbi hissələr yaratmağa başlamışdılar.

6 ay ərzində Qafqaza 35 min erməni əsgəri gəlmiş və onlara çoxlu könüllülər də qoşulmuşdu. Onların əsasında Qafqaz diviziyasının sabiq komandanı Tovmas Nazarbekyanın komandanlığında erməni korpusu formalaşdırılmışdı.

Korpusun komissarı daşnak partiyasının başçılarından olan Dro (Drastamat Kanayan) təyin edilmişdi. Erməni korpusu üç diviziyadan ibarət idi.

Yeni formalaşdırılan erməni silahlı dəstələri Türkiyədən qaçıb gələn erməniləri məskunlaşdırmaq niyyətilə ilk növbədə İrəvan ətrafında əlverişli ərazilərdə yerləşən azərbaycanlı kəndlərinə hücumlar edir, yerli azərbaycanlıları öz kəndlərini tərk etməyə məcbur edirdilər.

Erməni silahlı dəstələri 1918-ci ilin mart ayınadək təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi – üst-üstə 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər soydaşımız soyqırımına və deportasiyaya məruz qalmışdır. Osmanlı dövləti ilə Ermənistan arasında 4 iyun 1918-ci ildə Batumda sülh və dostluq haqqında imzalanan müqaviləyə əsasən, Ermənistan Respublikasının ərazisi təqribən 9 min kv.km, əhalisi isə 321 min nəfər olmuşdur.

Ermənilər imzalanan Batum müqaviləsində üzərlərinə götürdükləri öhdəliyə əməl etməyərək azərbaycanlılara qarşı cinayətləri davam etdirmişlər. Azərbaycan Milli Şurasının iyunun 13-də keçirilən iclasında İrəvan quberniyası ərazisində ev-eşiklərindən didərgin salınan və ac-yalavac dolanan qaçqınların sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kəndi dağıtdığı bildirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il iyulun 31-də o zaman yeni yaranan müstəqil dövlətlər arasında sərhədlərin müəyyən edilməsi ilə əlaqədar keçirilən İstanbul konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Məhəmməd Əmin Rəsulzadəyə göndərdiyi teleqramda yazırdı: “Əgər ermənilər əldə olunmuş razılığı pozaraq Qarabağla bağlı iddia qaldırsalar, İrəvanın onlara güzəştə gedilməsindən imtina et”.

İrəvan Quberniyası Həmyerlilər Təşkilatının sədri Teymur bəy Makinskinin 4 yanvar 1919-cu ildə göndərdiyi məlumatda deyilirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına – yəni, türk qoşunlarının gəlişinədək İrəvan quberniyasında erməni hərbi dəstələri tərəfindən 200-dən çox müsəlman yaşayış məntəqəsi dağıdılmış, qarət edilmiş, yandırılmış, əhalisinin bir qismi öldürülmüş, bir qismi də dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Teymur bəy Makinski zorla boşaldılmış müsəlman kəndlərində Türkiyədən gələn erməni qaçqınlarının məskunlaşdığını məlumatında qeyd etmişdir.

1918-ci il oktyabrın 30-da imzalanan Mudros sazişinə əsasən türk qoşunlarının Cənubi Qafqazdan geri çəkilməsindən sonra ermənilərin İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı kütləvi qarət-qırğınlarının ikinci mərhələsi başlamışdır.

1919-cu ilin yaz-yay ayları ərzində erməni quldur birləşmələri tərəfindən 300 Azərbaycan kəndi yağmalanmış və yandırılmış, on minlərlə azərbaycanlı qətlə yetirilmişdir.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək indiki Ermənistan ərazisində Zəngibasarın və Vedibasarın ərazilərinin bir qismi istisna olmaqla, qalan ərazilərdə azərbaycanlı əhaliyə qarşı silah gücünə etnik təmizləmə həyata keçirilmişdir.

Ümumiyyətlə, 1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Şamaxı, Quba, Gəncə, Zəngəzur, Qarabağ və İrəvanda 800-dən artıq yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz mindən çox azərbaycanlı qətlə yetirilmiş, bir milyona yaxın əhali öz taixi-etnik torpaqlarından didərgin salınmışdır. 1905-1906-cı il hadisələrindən başlayaraq, 1920-ci ilədək olan dövr ərzində indiki Ermənistan ərazisində 500-dən artıq Azərbaycan kəndi dağıdılmış, onların böyük əksəriyyəti erməni yaşayış məntəqəsinə çevrilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulmasından və 1921-ci il Moskva və Qars müqavilələrinin imzalanmasından sonra, daşnakların hakimiyyəti dövründə öz dədə-baba yurdlarından didərgin düşərək Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana səpələnmiş azərbaycanlıların bir qismi geri qayıtmağa müvəffəq olmuş, 1922-ci ilin sonunadək onların sayı 100 minə çatmışdır. Azərbaycanlıların yaşamış olduqları kəndlərin çoxunda boşalmış evlərdə Türkiyədən gəlmiş erməni ailələri yerləşdirildiyindən, qayıdan qaçqınlar ermənilərlə birgə yaşamağa məcbur olmuşdur.

*Terminologiya kimi, “soyqırımı”, yaxud “genosid” anlayışı BMT-nin Baş Assambleyasının 1946-cı il 11 dekabr tarixli Qətnaməsində tətbiq olunmağa başlamış, həmin qurumun 1948-ci il 9 dekabr tarixli Konvensiyasında isə genosid siyasətinin qarşısının alınması və ona görə cəza müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası 31 may 1996-cı ildə BMT Baş Assambleyasının 1948-ci il 9 dekabr tarixli Konvensiyasına qoşulmuşdur. 1918-1920-ci illər qırğınları planlı şəkildə, azərbaycanlıların milli və dini mənsubiyyətlərinə görə, etnik təmizləmə məqsədilə həyata keçirildiyi üçün soyqırımı mahiyyəti daşıyır (Konvensiyanın 2-ci maddəsi) və buna görə cəzalar nəzərdə tutulmuşdur (Konvensiyanın 3-cü maddəsi).*

Öz doğma tarixi torpaqları olan Qərbi Azərbaycandan (hazırki Ermənistan Respublikasının ərazisindən) Azərbaycan əsilli şəxslərin qovulmaları, təqib olunmaları, soyqırıma məruz qalmaları, xüsusi amansızlıqla qəsdən öldürülmələri, yaşadıqları ərazilərin adlarının qəsdən dəyişdirilməsi, məhv edilməsi, onlara məxsus tarixi-mədəni abidələrin dağıdılması faktları üzrə 2023-cü il martın 30-da Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırım), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib) və 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) maddələri ilə cinayət işi başlanmış, istintaq qrupu yaradılmışdır. Ölkənin 76 rayon və şəhərini əhatə edən ayrı-ayrı istintaq hərəkətlərinin aparılması ilə bağlı qərarlar qəbul edilmiş, bu qərarların icrası ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

İstintaqın hazırkı mərhələsinədək (2024-cü ilin birinci yarısınadək) şahid və zərərçəkmiş şəxs (eləcə də, zərərçəkmiş şəxsin hüquqi varisi) qismində 5.787 şəxs dindirilmişdir.

Cinayət işi üzrə ibtidai istintaqın aparılması zamanı şahid və zərərçəkmiş şəxslərin, araşdırmaçı tarixçilərin ifadələri (əsərləri), əməliyyat qurumları və dövlət müəssisələrindən, Azərbaycan Respublikası Dövlət Arxiv İdarəsindən daxil olan materiallara, eləcə də xarici ölkələrdə dərc edilən və ya çap edilən məlumatlara əsasən müəyyən edilmişdir ki, azərbaycanlılar Qərbi Azərbaycandan XX əsrin əvvəllərindən axırlarınadək şərti olaraq 4 tarixi mərhələdə deportasiya və soyqırıma məruz qalmışlar.

1-ci mərhələ 1905-1907-ci illəri əhatə etmiş, bu zaman 90.000 əhali deportasiya və soyqırımına məruz qalmış, 3-10 min arası əhali qətlə yetirilmişdir. 2-ci mərhələ 1918-1920-ci illəri əhatə etmiş, bu zaman 310-320 min əhali deportasiya və soyqırımına məruz qalmış, təkcə Zəngəzur qəzası üzrə 10.068 nəfər qətlə yetirilmişdir.

3-cü mərhələ 1947-1953-cü illəri əhatə etmiş, bu zaman 26 rayon və İrəvan şəhərindən 150.000 əhali deportasiya edilmişdir.

4-cü mərhələ 1987-1991-ci illəri əhatə etmiş, bu zaman 24 rayon, 13 şəhər, 12 qəsəbə və 259 kənddə ümumilikdə 300 minə yaxın azərbaycanlı deportasiya və soyqırımına məruz qalmış, onlardan 216 nəfər qətlə yetirilmişdir. Qətlə yetirilən şəxslərdən 50 nəferinin yaxın qohumları, habelə hadisə şahidləri müəyyən edilərək dindirilmiş, onlar zərərçəkmişlərin hüquqi varisləri kimi tanınmışdır.

## Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvan şəhərinin ermənilərə verilməsi

1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi süqut etmiş və elə həmin gün gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edilmişdir. Mayın 28-də də Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyi elan edilmişdir. Cənubi Qafqazın tarixi dövlətçilik ənənələrinə malik aborigen xalqları olan gürcü və azərbaycanlılardan fərqli olaraq ermənilər bölgədə tarixi etnik ərazi bazasına malik olmamışdır.

Batum konfransında (11 may-4 iyun 1918) Osmanlı dövlətinin yeni şərq sərhədləri ilə Göyçə gölü arasında erməni dövlətinin yaradılması barədə razılıq əldə edilməsi Azərbaycan tarixinin ən faciəli hadisələrindən birinə çevrildi. Belə ki, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası İrəvanın ermənilərə güzəştə gedilməsi haqqında məsələni müzakirə etmişdir. Azərbaycan Milli Şurasının iclasında baş nazir Fətəli xan Xoyski çıxış edərək bildirmişdir ki, Erməni federasiyasının təşkili üçün onlara siyasi mərkəz lazımdır, Aleksandropol (Gümrü) türklər tərəfindən tutulduqdan sonra belə bir mərkəz ancaq İrəvan ola bilər, buna görə də İrəvanın ermənilərə güzəştə gedilməsi labüddür. İclas İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsini tarixi zərurət və qaçılmaz acı həqiqət kimi qiymətləndirmişdir. İclasın məlum protokoluna əsasən iclasda iştirak edən 20 nəfər Milli Şura üzvündən 16 nəfəri "İrəvanın ermənilərə güzəştə gedilməsi" təklifinin lehinə, 1 nəfəri əleyhinə səs vermiş, 3 nəfər isə bitərəf qalmışdır.

Bununla da Batum konfransında həll edilən "erməni dövlətinin yaradılması və İrəvanın ermənilərə verilməsi" məsələsi Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli iclasında formal hüquqi prosedurun tamamlanması ilə yekunlaşmışdır. Azərbaycan Milli Şurasının 1 iyun 1918-ci il tarixində keçirilən iclasında İrəvandan olan şura üzvləri – Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov Milli Şuranın "İrəvanı Ermənistan Respublikasına güzəştə getməsi" qərarına qarşı rəsmi etirazla çıxış etmiş, lakin Milli Şura bu etiraz sənədini müzakirə etmədən onun protokola tikilməsi haqqında qərar qəbul etmişdir. Bununla da tarixi Azərbaycan şəhəri olan İrəvan ermənilərə verilmişdir.

## Qərbi Zəngəzurun və digər ərazilərin Sovet Ermənistanına verilməsi

Azərbaycan hökumətinin Andranikin Zəngəzurdan uzaqlaşdırılması barədə təkidli çağırışlarının nəticəsi olaraq Andranik öz dəstəsi ilə Zəngəzuru tərk etdikdən sonra əvvəlcə Dronun (Drastamat Kanayan), daha sonra isə Njdenin (Qaregin Ter-Harutyunyan) qoşunu burada qırğınları davam etdirmişdir.

1919-cu il oktyabrın əvvəllərində evləri yandırılan, özləri qaçqın düşən Zəngəzurun türk-müsəlman əhalisinin sayı 60 min nəfərə yaxın olmuşdur.

Ermənistan dövlətinin ərazisini silah gücünə genişləndirmək planını mərhələ-mərhələ həyata keçirən hakim "Daşnaksutyun" partiyası 1919-cu il dekabrın 7-də keçirilən yığıncağında Zəngəzuru Ermənistanın ayrılmaz tərkib hissəsi hesab etdiyini bəyan etmiş və ermənilərin nəzarət etdiyi ərazilərin əldə saxlanması üçün bütün tədbirlərə əl atmağa hazır olduğu barədə qətnamə qəbul etmişdir.

1920-ci il aprelin 30-da Azərbaycan sovet hökuməti, mayın 1-də isə Rusiyanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi Ermənistanın daşnak hökumətinə nota verərək ondan Qarabağ və Zəngəzur ərazilərini erməni silahlı dəstələrindən təmizləməyi, Ermənistan qoşunlarının öz sərhədlərinə çəkilməsini təmin etməyi, millətlərarası qırğını dayandırmağı tələb etmişdir.

Bu tələblərə məhəl qoymayan daşnak hökuməti 11-ci Qırmızı Ordu tərəfindən məğlub edilmiş, 1920-ci il noyabrın 29-da Ermənistanda daşnak hökuməti devrilmiş və sovet hakimiyyəti qurulmuşdur.

Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etmişdir. Avqustun 31-də isə yeni 9-cu qəza – mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan isə öz növbəsində Zəngəzurun qərb hissəsini öz inzibati-ərazi bölgüsündən çıxarmış, bununla da Zəngəzur iki hissəyə bölünmüş və onun qərb hissəsi Ermənistana birləşdirilmişdir. Daha sonra Qərbi Zəngəzur ərazisində Meğri, Qafan, Şisyan və Gorus rayonları yaradılmışdır.

18 fevral 1929-cu ildə Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Azərbaycan SSR-in Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğut kəndlərinin Ermənistan SSR-ə verilməsi haqqında qərar qəbul etmiş, nəticədə uzunluğu 42 km olan və hazırda "Zəngəzur dəhlizi" adlanan dəhliz meydana gəlmişdir.

1929-cu ildə Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin başqa bir qərarı ilə Naxçıvanın 657 kv km. ərazisi, 1938-ci ildə Sədərək və Kərki kəndlərinin torpaqlarının bir hissəsi də Ermənistana verilmiş, nəticədə Kərki kəndi anklav vəziyyətinə düşmüş və 1990-cı ildə ermənilər tərəfindən işğal edilmişdir.

Başqa bir qərarla 1984-cü ildə Qazax rayonunun Kəmərli kəndinə məxsus 2105 hektar sahə də Ermənistana verilmişdir.

Erməni tədqiqatçısı A.Badalyan Ermənistanın əhalisi haqqında yazdığı məqaləsində qeyd edir ki, Naxçıvan qəzasının ərazisinin 5,4%-i, Zəngəzur qəzasının ərazisinin 59,6%-i, Qazax qəzasının ərazisinin 44,5%-i, Borçalı qəzasının ərazisinin 35,3%-i və Qars qəzasının ərazisinin 14,7%-i Sovet Ermənistanına birləşdirilmişdir.

Həmin məlumatlardan aydın olur ki, 1920-ci ildən sonra Moskvanın birbaşa köməyi ilə Ermənistanın ərazisi təqribən 11 min kv. km artmışdır.

## Qərbi Azərbaycan Ermənistan SSR dövründə

1920-ci ilin noyabrında Ermənistanda qurulan sovet hakimiyyəti daşnak hökumətinin siyasətini davam etdirmişdir. Mərkəzin də fəal köməyi nəticəsində Qərbi Azərbaycanın tarixi torpaqlarından olan Zəngəzurun qərb hissəsi Ermənistana verilmişdir.

12 mart 1922-ci ildən 5 dekabr 1936-cı ilədək Azərbaycan, Gürcüstan və Ermənistan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) tərkibinə daxil olmuşdur. Azərbaycanın ZSFSR-ə qəbul olunmasına qədər Novo-Bəyazid qəzasının Basarkeçər bölgəsi və Şərur-Dərələyəz qəzasının üçdə ikisi artıq Ermənistanın tərkibinə daxil edilmişdi. Azərbaycan SSR ZSFSR-ə qəbul edildikdən sonra isə Qazax qəzasının xeyli hissəsi, Cəbrayıl qəzasının və Naxçıvanın bir sıra kəndləri Ermənistana verilmiş, beləliklə, Mərkəzin dəstəyi ilə Ermənistanın ərazisi Azərbaycan torpaqları hesabına artırılaraq 1918-ci ildəki 9 min kvadrat kilometrdən 29,7 min kvadrat kilometrə çatdırılmışdır.

Ermənilər Azərbaycanın tarixi torpaqlarını ələ keçirməklə yanaşı, məqsədyönlü şəkildə antiazərbaycan siyasəti aparmış, öz tarixi-etnik torpaqlarında yaşayan azərbaycanlıların tam deportasiyasına, boşaldılmış torpaqlara xaricdə yaşayan ermənilərin yerləşdirilməsinə çalışmışdır. Nəticədə, 1921-1936-cı illər ərzində Ermənistan ərazisinə xaricdən təxminən 42 mindən çox erməni köçürülmüşdür.

İkinci Dünya müharibəsi bitəndən dərhal sonra – 1945-ci ilin noyabrında Ermənistan rəhbərliyi, erməni kilsəsi və erməni diasporunun birgə məkrli planı nəticəsində SSRİ Xalq Komissarları Soveti 21 noyabr 1945-ci il tarixində "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul etmişdir. SSRİ Ali Sovetinin 19 oktyabr 1946-cı il tarixli fərmanına əsasən xaricdən Ermənistana "repatriasiya" adı altında gətirilən ermənilərə Sovet İttifaqının ərazisinə daxil olduqları andan SSRİ vətəndaşı statusu verilməsi qərara alınmışdı.
1946-cı ildə Suriya, Yunanıstan,

Livan, İraq, Bolqarıstan və Rumınıyadan 50,9 min, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,4 min nəfər erməni qəbul edilərək Ermənistanda yerləşdirilmişdir. Ümumilikdə 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 mindən də artıq erməni köçürülmüşdür ki, onların da xeyli hissəsi İrəvan, Gümrü, Qafan şəhərləri, Vedi, Zəngibasar, Zəngəzur, Göyçə gölü ətrafı ərazilərdə məskunlaşdırılmışdır.

## 1948-1953-cü illər deportasiyası

Sovet dövləti Dağlıq Qarabağın Ermənistana verilməsinin ağır nəticələrə səbəb olacağını nəzərə alaraq Ermənistanın bu iddiasından imtina etsə də, azərbaycanlılara qarşı deportasiya siyasəti tətbiq etmişdir. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr və "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli qərarları ilə 100 min nəfər azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Lakin deportasiya prosesi 1956-cı ilə qədər davam etdirilmiş, təqribən 150 min nəfər azərbaycanlı ata-baba yurdundan zorla köçürülmüşdür. Köçürülənlərin Azərbaycanın əsasən Aran bölgəsində (Zərdab, Əli-Bayramlı (Şirvan), Kürdəmir, Göyçay, Mirbəşir (Tərtər), Salyan, İmişli, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Saatlı) yerləşdirilməsi nəticəsində hər üç nəfərdən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyərək aclıq və xəstəlikdən ölmüşdür.

1948-1956-cı illərdə davam edən deportasiya prosesi nəticəsində İrəvan şəhərinin azərbaycanlı əhalisi yarıyadək azalmışdır. 1939-cu ildə keçirilən siyahıyaalma zamanı İrəvan şəhərində 6569 nəfər azərbaycanlı qeydə alındığı halda, 1959-cu ildə onların sayı 3413 nəfər olmuşdur. Eyni zamanda, 1961-ci ilin ortalarına qədər xarici ölkələrdən Ermənistana 200 min nəfər erməni köçürülmüşdür.

Ermənistandan azərbaycanlıların deportasiyası başa çatdırıldıqdan sonra digər bir prosesə start verildi. Ermənistanda yaşayan azərbaycanlı əhalinin azalmasını bəhanə edərək rayon və respublika miqyasında müəyyən vəzifələr tutan azərbaycanlı kadrların ermənilərlə əvəz edilməsi prosesi həyata keçirildi. Bu proses ilk növbədə paytaxt İrəvandan başlandı. Ermənistan KP MK-nın sənaye və nəqliyyat məsələləri üzrə katibi (sonralar şöbə müdiri) Məmməd İsgəndərov, kənd təsərrüfatı şöbəsi müdirinin müavini Rəhim Allahverdiyev, Mərkəzi Komitənin məsul işçisi Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov vəzifələrindən azad edildilər. Ermənistan SSR Ali Soveti sədrinin müavini Mirzə Bəşirov Ali Sovetin 9 aprel 1949-cu il tarixli sessiyasının qərarı ilə tutduğu vəzifədən uzaqlaşdırıldı. Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselsk rayonlarının partiya komitələrinin azərbaycanlı birinci katiblərini, digər 10 rayonda isə ikinci və üçüncü katiblər vəzifədən azad edilərək yerlərinə ermənilər təyin etdildi.

Amasiya, Basarkeçər və Krasnoselsk rayonlarından başqa, digər rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlandı.

X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunun 1937-ci ildən təhsili Azərbaycan dilində olan bölmələri – dil-ədəbiyyat, tarix-coğrafiya, fizika-riyaziyyat fakültələri və Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunda mövcud olan eyniadlı fakültələr bağlanaraq 1948-ci ildə Azərbaycandakı müvafiq institutlara köçürüldü.

1924-cü ildə açılan İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bağlanaraq onun fakültələri kənd rayonu hesab edilən Xanlar rayon mərkəzinə köçürüldü.

Deportasiya nəticəsində Ermənistan rəhbərləri Əştərək, Martuni (Qaranlıq), Qarabağlar, Abovyan (Ellər), Eçmiədzin rayonlarından azərbaycanlıların izinin silinməsinə nail olmuş, sonra isə Qarabağlar rayonu ləğv edilmiş və hazırda bu rayonun kəndlərinin əksəriyyəti xarabalığa çevrilmişdir.

## 1987-1991-ci illərin etnik təmizləmə prosesi

Ermənistanda antitürk, antimüsəlman təbliğatı 60-cı illərin ortalarında yenidən var gücü ilə işə salınmışdı. 1964-cü ildə Moskvanın razılığı ilə Ermənistan KP MK uydurma "böyük qırğın"ın (o vaxt indi işlədilən "erməni soyqırımı" termini əvəzinə, "böyük qırğın" ("medz yeğerni") ifadəsi işlədilirdi) 50 illiyinin 1965-ci il aprelin 24-də qeyd edilməsi haqqında qərar qəbul etmişdi. Uydurma "erməni soyqırımı"nın 50 illiyinin qeyd edilməsi haqqında qərarın qəbul edilməsi erməni şovinizmini daha da qızışdırmışdı. 1965-ci ildən etibarən hər il aprelin 24-ü rəsmi olaraq "genosid" günü kimi qeyd edilməyə başlanılmışdır. Məhz bu gün ərəfəsində ermənilər şəhərlərdə, küçə və bazarlarda qarşılarına çıxan azərbaycanlıları döyür, təhqir edirdilər.
Ermənistanın antiazərbaycan siyasətinin mahiyyətinin müəyyən edilməsində və onun qarşısının alınmasında tarixi rol oynamış Ulu Öndər Heydər Əliyev SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı ermənilərin Dağlıq Qarabağa olan ərazi iddialarının üstündən xətt çəkmişdir. Ulu Öndər böyük uzaqgörənlik və cəsarətlə ermənilərin antiazərbaycan siyasətinin, Ermənistanın daxilində azərbaycanlılara qarşı aparılan millətçi siyasətin, hər an başlaya biləcək yeni deportasiya dalğasının qarşısını qətiyyətlə almışdır. 21 oktyabr 1987-ci ildə Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılması ermənilərin məkrli siyasətinin reallaşdırılması üçün yol açmış oldu. Təsadüfi deyil ki, Ulu Öndərin istefasından dərhal sonra Mixail Qorbaçovun, "xeyir-duası" ilə Qarabağ münaqişəsi daha da genişləndi. 18 noyabr 1987-ci ildə Qorbaçovun müşavirlərindən olan akademik Abel Aqanbekyan Fransa kommunistlərinin "L'Humanité" qəzetinə müsahibə verərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini gündəmə gətirdi.

Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində 1987-ci ilin dekabr, 1988-ci ilin yanvar ayında Ermənistan SSR-in Qafan və Meğri rayonlarından ilk azərbaycanlı qaçqınlar qatarla Azərbaycana gəlmiş, onlar Abşeron rayonunda yerləşdirilmişdir. Lakin bu, ictimaiyyətdən gizli saxlanılmışdır.

Azərbaycan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin Azərbaycan Konstitusiyasına zidd olan "Dağlıq Qarabağ Erməni Respublikası"nın yaradılması barədə qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksutyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başlamış, Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra DTK-nın ssenarisi və erməni ekstremistlərinin bilavasitə iştirakı ilə 1988-ci il fevralın 27-28-də Sumqayıtda kütləvi iğtişaşlar törədilmişdir. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni deportasiya dalğası başlanmışdır.

11 may 1988-ci ildə ermənilər Vedi rayonunun Şirazlı kəndinə hücum etmiş, iki nəfər qətlə yetirilmiş, onlarla şəxs yaralanmış, evlər yandırılmışdır. Əhali Sovet-Türkiyə sərhədinə çəkilərək uzun müddət çadırlarda yaşamaq məcburiyyətində qalmışdır.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək bu qərara razılıq verilməsi üçün SSRİ Ali Sovetinə müraciət etmişdir. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşmışdır. İyunun 17-20-də İrəvanda teatr meydanında mitinqə toplaşan qəzəbli ermənilər avtobuslarla azərbaycanlılar yaşayan Zəngibasar rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçilər, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etmişdir. Müdafiəsiz qalan on mindən çox soydaşımız Sovet-Türkiyə sərhədinə toplaşmış, günlərlə orada gecələməyə məcbur olmuşdur. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmış, Uluxanlı

qəsəbəsində 3 mindən çox azərbaycanlı yaşadıqları evlərindən çıxarılmışdır. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynamışdır.

1987-ci ilin noyabrından başlayaraq ermənilərin Qafan rayonu ərazisində azərbaycanlıların yaşadığı kəndlərə davamlı hücumları başladı. Şahidlərin sözlərinə görə yerli partiya rəhbərinin təhriki ilə baş verən bu zorakılıqların nəticəsində noyabr ayında Qafanda yaşayan azərbaycanlılar 2 yük qatarı ilə oranı tərk edərək Azərbaycana gəlməyə məcbur oldular. 1987-ci ilin dekabrından etibarən Ermənistan ərazisindən azərbaycanlıların qovulub çıxarılması Ermənistanın dövlət siyasətinə çevrildi. 1988-ci ilin 24 noyabrından başlayan daha kütləvi və zorakı deportasiya prosesi qısa müddət ərzində - dekabrın 5-də başa çatdı. Bununla da Qərbi Azərbaycanın 24 rayonunun 300-ə yaxın yaşayış məntəqəsindən azərbaycanlı əhali zorla qovuldu.

Azərbaycanlıların Ermənistandan deportasiyası prosesi 8 avqust 1991 ci ildə Nüvədi kəndinin 357 ailədən ibarət olmaqla 1753 sakininin qovulması ilə tam başa çatdırıldı.

Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 24 kənd rayonu, 13 şəhər, 12 qəsəbəsi və 259 kəndindən 300 minə yaxın azərbaycanlı (49,928 ailə) vəhşicəsinə qovuldu. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti aldı, on minlərlə ailənin əmlakı qarət olundu.

1987-1991-ci illərdə Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirildikdən sonra Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə 90 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il fərmanı ilə 16 yaşayış məntəqəsinin, Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə isə əvvəllər azərbaycanlılara məxsus olmuş 31 yaşayış məntəqəsinin adları dəyişdirilərək erməniləşdirilmişdir.

Ümumiyyətlə, son dövrədək 717 türk mənşəli inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir.

Bakıda və SSRİ-nin başqa şəhərlərində təhsil alanlar, təhsil alıb təyinatla işləməyə göndərilənlər, SSRİ-nin müxtəlif şəhərlərində hərbi xidmətdə olanlar da nəzərə alınarsa, deportasiya olunanların sayı 300 min nəfərə yaxın olmuşdur. Demoqrafik göstəricilərin müqayisəli təhlili göstərir ki, hazırda 1987-91-ci il qaçqınları və onların varislərinin sayı yarım milyona yaxındır.

Bu da Azərbaycan Respublikası əhalisinin təxminən 5%-ni təşkil edir.

Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (deportasiyalarla, silah gücünə qovmaqla, soyqırımı törətməklə, kəndləri yandırıb xaraba qoymaqla və s.) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

SSRİ Ali Soveti 14 noyabr 1989-cu ildə "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz və cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" bəyannamə və SSRİ Nazirlər Soveti buna müvafiq olaraq xüsusi qərar qəbul etmişdir. Həmin bəyannamədə bütöv xalqları zorla köçürmək praktikasını beynəlxalq hüququn əsaslarına, sosializm quruluşunun humanist təbiətinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pisləmiş, repressiyaya məruz qalmış bütün Sovet xalqlarının hüquqlarının bərpası üçün müvafiq qanunvericilik tədbirlərinin görülməsi zəruri hesab edilmişdir.

Lakin adları çəkilən sənədlərdə deportasiya olunmuş xalqların sırasında Ermənistandan deportasiya olunan azərbaycanlıların adı çəkilməmişdir. Ona görə də indiki Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımızın öz tarixi vətənlərinə qayıtmaq hüququ tanınmamış və xalqımıza qarşı edilən tarixi ədalətsizlik bərpa olunmamışdır.

## 1980-ci illər deportasiyası nəticəsində azərbaycanlılara dəyən ziyanın miqyası

Azərbaycanlıların Qərbi Azərbaycandan 1988-ci il deportasiyası humanitar fəlakət olmaqla yanaşı, deportasiya qurbanlarına ciddi maddi zərər vurmuşdur. Qərbi Azərbaycan İcması tərəfindən aparılmış hesablamalara əsasən deportasiya olunmuş azərbaycanlılara fərdi təsərrüfatlarda dəymiş ziyan milyardlarla ABŞ dolları təşkil edir. Bura Ermənistan ərazisindəki Azərbaycan maddi mədəniyyət abidələrinə (300-dən artıq məscid, 500-dən artıq qəbiristanlıq, 170 mədəniyyət evi, 274 məktəb binası, 119 kitabxana, uşaq bağçaları, həkim məntəqələri, 1381 yardımçı təsərrüfat tikililəri, pir, ocaq, digər ziyarətgahlar, saray, körpü, karvansara, qala və s.), yeraltı və yerüstü təbii ehtiyatlara görə dəymiş ziyan da əlavə edilərsə, bu məbləğ dəfələrlə çox olacaqdır. Azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası ilə Azərbaycan xalqına vurulan mənəvi ziyanın həcmini isə pul ilə hesablamaq qeyri-mümkündür.

# QƏRBİ AZƏRBAYCANDA ELM VƏ MƏDƏNİYYƏT

## Qərbi Azərbaycanda elm və təhsil

Qərbi Azərbaycanda doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Əslən İrəvandan olan, xarici ölkələrdə “İrəvani” soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimi haqqında məlumatlar mövcuddur.

İstər xanlıqlar dövründə, istərsə də Rusiya işğalı dövründə xanların və bəylərin, əyanların, din xadimlərinin övladlarının mükəmməl təhsil almalarına xüsusi fikir verilirdi. İrəvanda varlı ailələrin övladları, əsasən, Bağdadda, Nəcəfdə, Kərbəlada, Məşhəddə, Xorasanda, Təbrizdə, Qahirədə ali dini təhsil alırdılar.

1832-ci ildə açılan ikisinifli İrəvan qəza məktəbi 1839-cu ildə üçsinifli qəza məktəbinə, 1869-cu ildə dördsinifli progimnaziyaya, 1881-ci ildə isə səkkizsinifli İrəvan Kişi Gimnaziyasına çevrilmişdir. İrəvan Kişi Gimnaziyası Azərbaycan ictimaiyyətinə, dövlətinə, elminə, mədəniyyətinə incəsənətinə bir sıra görkəmli şəxslər bəxş etmişdir. Tanınmış dövlət xadimlərindən Məmməd bəy Qazıyev, Teymur bəy Makinski, Əkbər ağa Şeyxülislamov, Nəriman bəy Nərimanbəyov, Məhəmməd Məhərrəmov, Əziz Əliyev, maarif və elm xadimlərindən Miryusif Mirbabayev, Mustafa bəy Topçubaşov, Əhməd Rəcəbli, Maqsud Məmmədov, generallardan Həbib bəy Səlimov, Qambay Vəzirov İrəvan gimnaziyasının məzunları olmuşlar.

1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışı olmuşdur. Burada ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənləri ilə yanaşı, tatar (Azərbaycan dili) dərsləri də keçirilirdi. Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy

Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti – Ermənistan (Ararat) Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra təhsilin inkişafı üçün əməli tədbirlər həyata keçirilməyə başlanılmış, 1923–1924-cü tədrisi ilində Ermənistanda təhsili Azərbaycan dilində olan məktəblərin sayı 104-ə çatmışdır. 1935-ci ildə Gümrüdə (Leninakanda) Azərbaycan dilində qiyabi ikiillik Müəllimlər İnstitutu fəaliyyətə başlamışdır. Sonradan həmin institut Dilican şəhərinə köçürülmüş və daha sonra bağlanmışdır. İkiillik Müəllimlər İnstitutunda Bakıdan göndərilən müəllimlər dərs deyirdilər.

1924-cü ildən fəaliyyət göstərən, Ermənistandakı Azərbaycan məktəbləri üçün müəllimlər hazırlayan internat tipli İrəvan Türk Pedaqoji Texnikumunun məzunları arasından onlarla akademik, elmlər doktorları, yüzlərlə maarif fədailəri yetişmişdir. 1936-cı ildən İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi adlanan həmin təhsil ocağında bir müddət görkəmli alim, akademik Yusif Məmmədəliyev də fəaliyyət göstərmişdir.

1928-ci ildən İrəvanda Kənd Təsərrüfatı Texnikumunun azərbaycan bölməsi fəaliyyətə başlamış, 1933-cü ildən həmin bölmə müstəqil İrəvan Azərbaycan Kənd Təsərrüfatı Texnikumuna çevrilmişdir. Azərbaycanlıların Ermənistandan 1948–1953-cü illər deportasiyası nəticəsində Azərbaycan məktəblərinin şəbəkəsi ciddi dağıntıya məruz qalmış, İrəvan Pedaqoji Texnikumu 1948-ci ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna, İrəvan Dövlət Pedaqoji İnstitutunun və Erməni Dövlət Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı bölmələri isə Bakıdakı müvafiq pedaqoji institutlara köçürülmuşdür.

Yalnız 1954-cü ildə tərkibində iki fakültə (fizika-riyaziyyat və Azərbaycan dili və ədəbiyyatı) olmaqla İrəvan Pedaqoji İnstitutunda yenidən Azərbaycan bölməsi açılmışdır. İnstitutda yalnız Azərbaycan dili və ədəbiyyatı kafedrası müstəqil fəaliyyət göstərmişdir.

Ermənistan SSR Maarif Nazirliyinin 1981–1982-ci illərdə təlimləri Azərbaycan dilində aparılan və beynəlmiləl məktəblər haqqında verdiyi məlumata görə Ermənistanda 155 sırf Azərbaycan və Azərbaycan siniflərinin də mövcud olduğu 38 beynəlmiləl məktəbdə ümumilikdə 48.812 azərbaycanlı şagird təhsil almışdır.

Əslən İrəvan şəhərindən olan, elmin müxtəlif sahələrini əhatə edən 6 akademik, akademiyanın 3 müxbir üzvü, 27 elmlər doktoru və 73 elmlər namizədi yetişmişdir. Bir ənənə olaraq Ermənistan SSR maarif nazirinin müavinlərindən biri azərbaycanlı olmuşdur. Bu vəzifədə müxtəlif vaxtlarda Rəhim Allahverdiyev, Rza Vəlibəyov, Suren Şərifov, İsrafil Məmmədov işləmişlər.

1988-ci ildə Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması, Ermənistandan azərbaycanlıların tamamilə deportasiya edilməsi zəngin ənənəyə malik təhsil ocaqlarının birdəfəlik məhvinə səbəb olmuşdur. 1988-ci ilin fevralında tədrisi Azərbaycan dilində aparılan İrəvan şəhər M.F.Axundov adına orta məktəbin binası erməni vandalları tərəfindən yandırıldıqdan sonra məktəbdə tədris prosesinə son qoyulmuşdur. Ümumiyyətlə, 1988–1989-cu illərdə tədrisi Azərbaycan dilində aparılan 155 məktəb və 38 beynəlmiləl məktəblərdəki Azərbaycan bölmələri bağlanmış, 48.681 şagird və 3992 müəllim Ermənistandan zorakılıqla deportasiya edilmişdir.

## Qərbi Azərbaycan ziyalıları

Göyçə aşıq məktəbinin banisi Miskin Abdal (1430, Göyçə – 1535, Göyçə), İrəvan xanı Hüseynqulu xan Qacar (1742, Cənubi Azərbaycan – 1831, Cənubi Azərbaycan), Şeyxülislam Fazil İrəvani (1782, İrəvan – 1885, İrəvan), Aşıq Ələsgərin ustadı Aşıq Alı (1801, Qızılvəng – 1911, Qızılvəng), Aşıq Ələsgər (1821, Ağkilsə – 1926, Ağkilsə), Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvani (1826, İrəvan – 1875, İrəvan), İrəvanın görkəmli müəllimləri Abbas Məhəmmədzadə (1864, İrəvan – 1919, Təbriz) və Məmmədvəli Qəmərlinski (1871, İrəvan – 1916, Gəncə), şərqşünas alim Mirzə Hüseyn Ağa (1868, İrəvan – 1938, Kaluqa),



Miskin Abdal (1430, Göyçə – 1535, Göyçə)



Aşıq Alı (1801, Qızılvəng – 1911, Qızılvəng)



Aşıq Ələsgər (1821, Ağkilsə – 1926, Ağkilsə)



Mirzə Qədim İrəvani (1826, İrəvan – 1875, İrəvan)

Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurasının üzvü Teymur xan Makinski (1874 İrəvan), İrəvanda Azərbaycan teatrının yaradıcısı Yunis Nuri (1878, İrəvan – 1950,- İrəvan), general Həbib bəy Səlimov (1881, İrəvan – 1920, Naxçıvan),



Rəşid bəy İsmayılov (1877, İrəvan – 1941, Bakı)

jurnalist və şair Cabbar Əsgərzadə (1885, İrəvan – 1966, Tehran), Abbasqulu bəy Şadlınski (1886, Böyük Vedi – 1930, Dəvəli), Əli Məhzun (1886, İrəvan – 1934, Azərbaycan), görkəmli alim Miryusif Mirbabayev (1889, İrəvan – 1951, Bakı), Azərbaycanın İstiqlal bəyannaməsini imzalayanlardan Əkbər ağa Şeyxülislamov (1891, İrəvan – 1961, Paris)



Həbib bəy Səlimov (1881, İrəvan – 1920, Naxçıvan)



Yunis Nuri (1878, İrəvan – 1950,- İrəvan)

Məhəmməd Məhərrəmov (1895, Qəmərli – 1982, Paris) və Nəriman bəy Nərimanbəyov (1899, İrəvan – 1938, Bakı), Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin baş katibi Bağır bəy Rzayev (1891, İrəvan – 1927, Bakı),

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifədə çalışan Rəşid bəy İsmayılov (1877, İrəvan – 1941, Bakı) görkəmli həkim və dövlət xadimi Mustafa bəy Topçubaşov (1895, İrəvan – 1981, Bakı), görkəmli tarixçi-alim Məhəmməd Ağaoğlu (1896, İrəvan – 1949, ABŞ), görkəmli ictimai-siyasi və dövlət xadimi, elm və səhiyyə təşkilatçısı, Əməkdar həkim Əziz Əliyev (1897, İrəvan – 1962, Bakı),



Miryusif Mirbabayev (1889, İrəvan – 1951, Bakı)



Bağır bəy Rzayev (1891, İrəvan – 1927, Bakı)



Mustafa bəy Topçubaşov (1895, İrəvan – 1981, Bakı)



Məhəmməd Məhərrəmov (1895, Qəmərli – 1982, Paris)

dövlət xadimi Maqsud Məmmədov (1897, İrəvan – 1937), akademik Əhməd Rəcəbli (1898, İrəvan – 1963, Bakı), jurnalist Məmmədəli Nasir (1899, İrəvan – 1982, Bakı), görkəmli dövlət adamı Saleh Güllicinski (1899, İrəvan – 1937), görkəmli həkim Şamama Ələsgərova (1904, İrəvan – 1977, Bakı), bəstəkar Səid Rüstəmov (1907, İrəvan – 1983, Bakı), akademik Həsən Əliyev (1907, Comrədli – 1992, Bakı),



Məhəmməd Ağaoğlu (1896, İrəvan – 1949, ABŞ)



Əziz Əliyev (1897, İrəvan – 1962, Bakı)

dövlət xadimi Cəfər Vəlibəyov (1907, Əkərək – 1981, Bakı), akademik Heydər Hüseynov (1908, İrəvan – 1950, Bakı), ictimai xadim Həsən Seyidov (1908, İrəvan – 1999, Bakı), ədəbiyyatşünas alim Cəfər Xəndan (1910, İrəvan – 1961, Bakı), görkəmli rejissor Hüseyn Seyidzadə (1912, İrəvan – 1979, Bakı), ictimai xadim Bağır Seyidzadə (1912, İrəvan – 1968, Bakı), şair Əhməd Cəmil (1913, İrəvan – 1977, Bakı), görkəmli aktyor Muxtar Afşarov (1914, İrəvan – 2004, Bakı), alim və təhsil təşkilatçısı Əfşan Qədimbəyova (1915, İrəvan – 1980, Bakı), ədəbiyyatşünas alim Mirəli Seyidov (1918, İrəvan – 1992, Bakı),



Nəriman bəy Nərimanbəyov (1899, İrəvan – 1938, Bakı)



Bağır Seyidzadə (1912, İrəvan – 1968, Bakı)

Xalq rəssamı Kamil Əliyev (1921, İrəvan – 2005, Bakı), görkəmli kinoşünas və teatrşünas Sabir Rizayev (1924, İrəvan – 1978, İrəvan), akademik Budaq Budaqov (1928, Çobankərə – 2012, Bakı), dilçi alim Zərifə Budaqova (1929, İrəvan – 1989, Bakı) və başqa ziyalılar Qərbi Azərbaycanda doğulmuş və Azərbaycan mədəniyyətinə, elminə, incəsənətinə, təhsilinə böyük töhfələr vermiş və dövlətçiliyinə ləyaqətlə xidmət etmişdir.



Kamil Əliyev (1921, İrəvan – 2005, Bakı)

## Azərbaycan milli-mədəni irsinin–toponimlərin məhvi

Ermənistanda azərbaycanlıların milli-mədəni irsinin bütün mümkün istiqamətlərdə silinməsi siyasəti davamlı olaraq həyata keçirilmiş, tarixi, dini, mədəni abidələr vəhşicəsinə məhv edilmişdir. Hazırda Ermənistan Azərbaycan mədəniyyətinin İrəvan şəhərində qalmış son nümunəsini – azərbaycanlıların zəngin şəhərsalma ənənəsini, tarixi memarlıq nailiyyətlərini özündə əks etdirən XVII əsrdə formalaşmış Təpəbaşı məhəlləsini məhv etmək siyasətini həyata keçirir. Bunun qarşısını almaq məqsədi ilə Azərbaycan ziyalıları YUNESKO-ya müraciət etmişdir.



XVI əsrdə tikilmiş İrəvan qalası

Azərbaycanlıların tarixi irsinin bir hissəsi olan toponimlərə qarşı da Ermənistanda dövlət səviyyəsində "soyqırımı" siyasəti həyata keçirilmiş, nəticədə azərbaycanlıların yaşadığı 1000-dən çox yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Onlardan 752-si Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları ilə, 300-ü isə qeyri-rəsmi qaydada dəyişdirilmiş, tarixən azərbaycanlıların yaşadığı 499 kənd ləğv edilmiş və ya dağıdılmışdır. Bundan başqa, 231 oronimin (dağ, dərə, təpə və s.), 116 hidronimin (çay, göl, digər su hövzələri), 137 yaylaq və qışlağın adı da dəyişikliyə məruz qalmışdır.



Talın qalası, Talın mahalı,
Aşağı Talın kəndi XIII əsr



Cul körpüsü, Paşalı rayonu, XIII əsr



İrəvanda məqbərə,
Rəssam Vanderbux, 1838



Sərdarabad qalasının önündə
İrəvan xanlığının döyüşçülərinin məşqi.
Rəssam Q. Qaqarin



İrəvan qalasındakı Sərdar
(Abbas Mirzə) məscidi.
Rəssam Dübua de Monrope, 1843



Amberd Qəsri, Əştərək rayonu



İrəvan qalasının qalıqları



Qarakilsə nahiyəsinin Ağudi kəndində qəbirüstü abidə, VII əsr



Göy məscid, İrəvan şəhəri, 1760-1765



Uzunlar Məbədi, Allahverdi rayonu, VI-VII əsrlər

## QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ UĞRUNDA MÜBARİZƏ

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olmuşdur. Bu müharibə nəticəsində Azərbaycanın qazandığı Zəfər bölgədə yeni reallıq yaratmış və bu reallıq Qərbi Azərbaycandan zaman-zaman deportasiya edilən azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmaq arzusunun reallaşması üçün hüquqi zəmin formalaşdırmışdır. 2022-ci ilin 24 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ad gününü öz ailəsi hesab etdiyi Qərbi azərbaycanlılarla keçirmişdir. Həmin görüşdə cənab Prezident proqram xarakterli çıxış etmiş, bu sahədə işlərin dinamikasının artırılmasına dair tapşırıqlar vermişdir. Bu görüş nəinki müstəqil Azərbaycan tarixində, ümumiyyətlə ölkəmizin müasir tarixində mühüm yer tutmaqdadır.

Görüşdə Azərbaycanın həm daxili, həm də xarici siyasətində yeni və prioritet bir istiqamət müəyyənləşdirildi – Qərbi Azərbaycana qayıdış məsələsi.

Prezident İlham Əliyev görüşdə demişdir: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.”

Əslində, Qərbi Azərbaycan məsələsi həm Ümummilli Lider Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin ölkəyə rəhbərlikləri dövründə dövlət siyasətinin vacib tərkib hissəsini təşkil etmişdir. Ulu Öndər 05.02.1991-ci il tarixində Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı çıxışında Qərbi Azərbaycan məsələsini sanki müasir nəsillərə

və öz siyasi varisi olan Prezident İlham Əliyevə vəsiyyət etmişdir: “Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər. Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın.”

Təsadüfi deyil ki, “Qərbi Azərbaycan” ifadəsi də siyasi leksikona Ümummilli Lider tərəfindən gətirilmiş və o ilk dəfə 10.12.1998-ci il tarixində “İslam sivilizasiyası Qafqazda” mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxışı zamanı bu ifadələri işlətmiş və qeyd etmişdir ki, “indi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan azərbaycanlılar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun azərbaycanlı yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir”.

Vətən müharibəsində qazanılan böyük Zəfərin müjdəsini və Şuşanın azadlığını xalqa bildirən Ali Baş Komandan İlham Əliyev müraciətində “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim!” - deməklə, təkcə ərazi bütövlüyümüzün bərpasına deyil, həm də tarixi torpaqlarımıza geri dönüşümüzə işarə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məsələ ilə bağlı hələ 2014-cü ildə Ağdamda hərbi hissələrdən birinin açılışı zamanı qeyd etmişdir ki, “Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq”.

İkinci Qarabağ müharibəsinin Azərbaycanın zəfəri ilə başa çatması Qərbi Azərbaycan məsələsinin aktuallıq qazanmasına rəvac vermiş, Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın mübarizəsinin bu sahədə müstəsna fəaliyyəti olan Azərbaycan Qaçqınlar Cəmiyyətinin bazasında formaladırılacaq təşkilat tərəfindən aparılması məqsədəmüvafiq hesab edilmişdir.

Azərbaycan Qaçqınlar Cəmiyyətinin təsis Qurultayı Qərbi Azərbaycanda anadan olmuş, ziyalıların təşəbbüsü ilə 28.12.1989-cu il tarixində keçirilmişdir. 22.01.1990-cı il tarixində Azərbaycan SSR Nazirlər Soveti "Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaranması haqqında" Qərar qəbul etmiş, Cəmiyyət 14.02.1992-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. 1989-1993-cü illərdə Cəmiyyətə əslən Qərbi Azərbaycanın Karvansara (İcevan) rayonunun Salah kəndindən olan Bakı Dövlət Universitetinin professoru Niftalı Qocayev sədrlik etmişdir.

1993-2014-cü illərdə Cəmiyyətə 1988-ci il Qərbi Azərbaycanın Vedi rayonundan qaçqın düşmüş və 1989-1993-cü illərdə Cəmiyyətdə sədr müavini kimi çalışmış Abbas Səfərov sədrlik etmişdir.

2014-cü ildən Cəmiyyətə filologiya elmləri namizədi, dosent Əziz Ələkbərli rəhbərlik etməyə başlamışdır. Ə.Ələkbərli Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyasının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

3 avqust 2022-ci il tarixində Ümumi Yığıncaq keçirilmiş, "Azərbaycan Qaçqınlar Cəmiyyəti"nin adı dəyişdiriləərək "Qərbi Azərbaycan İcması" adlandırılmış, İcmanın yeni Nizamnaməsi təsdiq olunmuş, yeni orqan və strukturlara seçkilər keçirilmiş, İcma 12 avqust 2022-ci il tarixində Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçmişdir.

2022-ci ildən Əziz Ələkbərli Qərbi Azərbaycan İcmasının İdarə Heyətinə sədrlik etməyə başlamışdır.

O, 1960-cı ildə Qərbi Azərbaycanın Vedi rayonunun Qaralar kəndində anadan olmuş, 1988-ci ildə ailəsi ilə deportasiyaya məruz qalmışdır.

Prezident İlham Əliyev 24 dekabr 2022-ci il tarixində İcmanın yeni binasında görüşü zamanı Qərbi Azərbaycana sülhsevər qayıdış konsepsiyasının hazırlanmasına dair tapşırıq vermiş, tapşırığa uyğun olaraq İcma tərəfindən “Qayıdış Konsepsiyası” hazırlanmış və 26 yanvar 2023-cü il tarixində təsdiq edilmişdir. Konsepsiya sənədi 8 dildə (Azərbaycan, ingilis, fransız, rus, alman, ispan, ərəb, çin) böyük tirajla çap olunaraq paylanmışdır.




Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən etməkdədir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

QAİ adından Beynəlxalq müstəvidə BMT Baş katibinə, Aİ Şurasının Prezidentinə, Avropa Komissiyasının Prezidentinə, AŞ Baş katibinə, Aİ xarici işlər və təhlükəsizlik məsələləri üzrə ali komissarına, Roma Papasına, UNESCO-nun Baş direktoruna, BMT-nin insan hüquqları üzrə ali komissarına, Ermənistanın baş nazirinə, ABŞ dövlət katibinə, ABŞ Konqresinə, Almaniya, Fransa, İspaniya, Kanada, Belçika, Litva, Polşa xarici işlər nazirlərinə, AŞPA Monitorinq Komitəsinə, Amnesty İnternational təşkilatının baş katibinə, Human Right Watch təşkilatının icraçı direktoruna, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinə, Aİ-nin Cənubi Qafqaz və Gürcüstandakı böhran

üzrə xüsusi nümayəndəsinə onlarla məktub göndərilmişdir. Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-nun Baş direktoruna və Avropa Komissiyasının Prezidentinə ünvanlanmış məktublara cavab alınmışdır.

Beynəlxalq təşkilatlar müstəvisində QAİ-nin 7 sənədi – beynəlxalq ictimaiyyətə ünvanlanmış 2 müraciət, Qayıdış Konsepsiyası, UNESCO-nun Baş direktoruna müraciəti, BMT Baş katibinə ünvanlanmış 2 məktub və BMT-nin insan hüquqları üzrə ali komissarına müraciət BMT-nin əsas orqanları olan Təhlükəsizlik Şurası, Baş Assambleya və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yayılmışdır.

Həmçinin QAİ-nin Qərbi Azərbaycan mövzusu ilə bağlı irəli sürdüyü yazılı bəyannamə AŞPA-nın rəsmi sənədi kimi dərc olunmuşdur. Eyni zamanda İcmanın paralel hesabatında qaldırılan məsələlər BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin Ermənistanla bağlı dövri hesabatında nəzərə alınmışdır.

Ötən dövr ərzində QAİ adından Ermənistanın və digər dövlət rəsmilərinin həqiqətləri təhrif etməyə yönəlmiş ifadə və bəyanatları, beynəlxalq təşkilatların qərəzli hesabatları və qətnamələri ilə bağlı yüzlərlə bəyanat – Fransa Prezidentinin və Senat sədrinin, Argentina Prezidentinin, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının, Beynəlxalq Frankofoniya Təşkilatının baş katibinin, ABŞ Dövlət Departamenti və Dövlət katibinin, Ermənistanın baş naziri və xarici işlər nazirinin, Avropa İttifaqının ali nümayəndəsinin, AŞ Baş katibinin, AŞPA sədrinin, Almaniya, Fransa, İspaniya, Kanada, Belçika, Latviya, Litva, Estoniya, Polşa, Braziliya xarici işlər nazirlərinin bəyanatlarını, eləcə də Avstriya və Çexiya parlamentlərinin qərəzli qətnamələrini qınayan bəyanatlar yayılmışdır.

QAİ nümayəndələri Berlin, Madrid, Vyana, Haaqa, Cenevrə, Strasburq, Varşava, Ankara, İstanbul, Tbilisi və başqa şəhərlərdə keçirilən beynəlxalq təşkilatların forumlarında, eləcə də Qərbi Azərbaycan məsələsi ilə bağlı tədbirlərdə iştirak və çıxış etmişlər.

QAİ-nin inzibati binasında, eləcə də tədbir təşkil edilən məkanlarda beynəlxalq təşkilatların rəhbər və nümayəndələri, xarici diplomatlar, dövlət rəsmiləri və alimlərlə onlarla görüş keçirilmişdir.

Prezident İlham Əliyevin tapşırığı ilə xaricdə yaşayan Qərbi azərbaycanlılar arasında əlaqələrin qurulması istiqamətində iş aparılır. 16 ölkədə QAİ ilə əlaqələndirici soydaşlarımız müəyyənləşdirilmişdir. Görülmüş işlərin nəticəsində Fransada Qərbi Azərbaycan həqiqətlərini yaymaq məqsədilə yeni bir təşkilat təsis edilmiş və dövlət qeydiyyatına alınmışdır. Məsələ ilə bağlı ölkə daxilində də genişmiqyaslı işlər aparılmışdır.

Milli Məclisin müxtəlif komitələrində Qərbi Azərbaycan məsələsi ilə bağlı 6 dinləmə keçirilmiş, dinləmələrdə Milli Məclis deputatları, alim və tədqiqatçılar, aidiyyəti qurumların və media orqanlarının rəhbər şəxsləri, qeyri-hökumət təşkilatları nümayəndələri iştirak etmişdir.

Məsələ ilə bağlı ölkə daxilində də genişmiqyaslı işlər aparılmışdır. Milli Məclisin müxtəlif komitələrində Qərbi Azərbaycan məsələsi ilə bağlı 6 dinləmə keçirilmiş, dinləmələrdə Milli Məclis deputatları, alim və tədqiqatçılar, aidiyyəti qurumların və media orqanlarının rəhbər şəxsləri, qeyri-hökumət təşkilatları nümayəndələri iştirak etmişdir.

Nazirlər Kabineti 19 iyul 2023-cü il tarixində "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik etmişdir. Fəxr edə bilərik ki, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı aparılarkən sənədlərdə, o cümlədən şəxsiyyət vəsiqələrində Qərbi Azərbaycandakı yer adları artıq Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq "Qarakilsə", "Keşişkənd", "Basarkeçər" və s. şəklində yazılır.

Prospektlərə, yaşayış məntəqələrində və şəhərlərdə giriş yollarına, turizm obyektlərinə, gəmi və təyyarələrə Qərbi Azərbaycanla bağlı adlar verilməsi ilə əlaqədar təklif nəticəsində Nazirlər Kabinetinə təqdim olunmuş. Hazırda Bakı və Sumqayıt şəhərlərində bir sıra küçə və obyektlərə Zəngəzur, Göyçə, Dərələyəz, Ağbaba, Sərdarabad,

Qaraqoyunlu, Arpaçay, Qəmərli, Qırxbulaq, Zəngibasar, Almalı, Bazarçay, Vedibasar, Abbasabad, Dəvəli, Comərdli və s. kimi adlar verilmişdir. QAİ-nin inzibati binasında indiyə qədər keçirilən müxtəlif tədbirlərlə yanaşı, icma üzvlərinin maarifləndirilməsi və təşkilatlanmasına da xüsusi diqqət yetirilmişdir. Belə ki, son dövrədək İrəvan, Qafan, Dərələyəz, Amasiya, Vedi, Loru-Pəmbək, Basarkeçər, Çəmbərək, Qarakilsə, Paşalı, Keşişkənd, Barana, Hamamlı, Zəngibasar, Meğri, Böyük Qarakilsə və digər icmaların nümayəndələri ilə mütəmadi görüşlər keçirilmiş, bu görüşlərdə minlərlə Qərbi Azərbaycan əsilli şəxs iştirak etmişdir.

Prezident İlham Əliyev Qərbi Azərbaycan ziyalıları ilə görüşündə qeyd etmişdir ki, bizləri öz tarixi torpaqlarımıza qayatarcaq bir çox amillər var, onlardan ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu yaddaş heç şübhəsiz milli kimliyimizə və yaratmış olduğumuz mədəniyyətə əsaslanır. Bizim də bu gün əsas vəzifəmiz tarixi kimliyimizi və mədəniyyətimizi qorumaqdan, onu gələcək nəsillərə olduğu kimi çatdırmaqdan ibarətdir. Bu mənada Ulu Öndərimiz Heydər Əliyev Qərbi Azərbaycan tarixinə, mədəniyyətinə və mədəniyyətimizin tərənnümçüləri olan ziyalılarına daim yüksək diqqətlə yanaşmışdır. Qərbi Azərbaycanı və ümumən Azərbaycan milli mənlik şüurunu öz əsərlərində tərənnüm edən şəxsiyyətlərimizin yubileylərinin keçirilməsi, onların adlarının əbədiləşdirilməsi Ulu Öndərin qərarları ilə həyata keçirilmişdir. Bu mənəvi və siyasi irs Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin siyasətində də qırmızı xətt kimi keçmişdir. Prezident İlham Əliyev nəinki tarixi şəxsiyyətlərimizin və ziyalılarımızın, hətta Qərbi Azərbaycanın tarixində baş verən önəmli hadisələrin qeyd edilməsi ilə bağlı da sərəncamlar imzalamışdır. Ümummilli Lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı "1948–1953-cü illərdə azərbay-canlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında",

"Azərbaycanlıların soyqırımı haqqında", "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" Fərmanları və "Aşıq Ələsgərin 175 illik yubilyinin keçirilməsi haqqında", "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında", "1998-ci il 26 mart tarixli fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" sərəncamları olmuşdur.

Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı "İrəvan Dövlət Azərbaycan Dram Teatrının 125 illik yubileyi haqqında", "İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında", "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında", "İrəvan Dövlət Azərbaycan Dram Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında", "Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrı binasının əsaslı təmiri və yenidən qurulması işləri haqqında", "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında", "Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi haqqında", "Aşıq Ələsgərin abidəsinin ucaldılması haqqında", "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında", "İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında" sərəncamları olmuşdur.

2023-cü il dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcması tərəfindən Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda 24 ölkədən 44 nəfər xarici nümayəndə daxil olmaqla 120 nəfər iştirak etmişdir.

2024-cü ilin 5-6 dekabr tarixlərində 51 xarici ölkədən 100-dən artıq qonağın, ölkədə akreditə olunmuş diplomatik korpusun təmsilçilərinin,

ümumilikdə 200-dən çox şəxsin iştirakı ilə II Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda Prezident İlham Əliyevin Konfrans iştirakçılarına müraciəti oxunmuşdur.
Milli Məclisdə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək vermək məqsədilə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılmışdır.
İcmanın ayrı-ayrı strukturlarında təmsil olunan 136 şəxsin ARP-nin müfaviq sərəncamı ilə ordu, medal və fəxri adlarla təltif olunması İcmaya olan ali diqqətin və etimadın təzahürüdür.

QAİ-nin müxtəlif dillərdə saytı – www.westaz.org fəaliyyət göstərir.

"Qərbi Azərbaycan TV" internet kanalı Youtube sosial şəbəkəsində Azərbaycan və rus dillərində yayımlanır.

Qərbi Azərbaycanın 1988-ci ildə azərbaycanlıların sıx yaşadıqları 22 rayonu üzrə formalaşmış icmaların hər birinə sədr təyin edilmişdir.

İcmanın Azərbaycan Respublikasının ərazi vahidləri üzrə 84 inzibati rayondan 52-də Qərbi azərbaycanlılar yaşayır ki, onlardan da hər birinə nümayəndələr təyin olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24.12.2022-ci il tarixində Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə demişdir: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır".

Biz, QƏRBİ AZƏRBAYCANLILAR dünyanın harasında yaşamağımızdan asılı olmayaraq öz doğma vətənimizə qayıtmaq uğrunda əzmlə çalışmalı, öz haqq mübarizəmizə ürəkdən inanmalı və vətənimizə geri dönmək hüququmuzu təmin etməliyik!
Bu haqq yolunda beynəlxalq hüquq bizim tərəfimizdə, bütün dünya azərbaycanlıları da bizim yanımızdadır.

"Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq."

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*

## Ümummilli Lider Heydər Əliyevin nitqlərində Qərbi Azərbaycan məsələsi

"Bəzi tarixi materiallardan bilirəm ki, 1948-ci ildə azərbaycanlılar məcburən Ermənistandan Azərbaycana köçürülüb. Bu, səhv siyasət olub, təəssüf ki, həmin haqsızlığa o vaxtkı Azərbaycan rəhbərləri də razılıq veriblər və bunun nəticəsində Ermənistan ərazisində əsrlər boyu yaşamış adamlar yurdlarından qovulub Azərbaycanın əsasən aran rayonlarında, olduqca ağır iqlim və həyat şəraitində yaşamağa məcbur olmuşlar. Bir şeyə məəttəl qalıram: 200 min azərbaycanlı 2-3 gün ərzində öz yurd-yuvalarından qovalanıb tökülürlər Azərbaycanın şəhər və kəndlərinə, ac-yalavac yaşayırlar. Respublika hökuməti isə buna siyasi qiymət vermir. İndi SSRİ hökuməti Azərbaycandan qaçmış ermənilərin vəziyyəti haqqında xüsusi qərar qəbul etmişdir.

Bəs, nə üçün o vaxt Ermənistandan sürgün edilən azərbaycanlıların aqibəti haqqında düşünülməmişdir, lazımi qərar qəbul edilməmişdir? Mən buna cavab tapa bilmirəm."

*Jurnalist Elmira Əhmədovaya Moskvada verdiyi müsahibədən. İyun 1990-cı il.*

"1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kv. kilometr olub. İndi isə 86 min kv. km-dir. Gör əlimizdən nə qədər torpaqlar gedib. Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər. Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz.

Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik, Soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın.

Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm, o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən, 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa, Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik."

*Azərbaycan Respublikası*
*Ali Sovetinin birinci sessiyasında çıxışından.*
*05.02.1991-ci il.*



"Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik."

*Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışından.*
*23.02.1994-cü il.*




“Mustafa bəy Topçubaşov XX əsrdə Azərbaycanın ən görkəmli şəxsiyyətlərindən biridir. O, İrəvan şəhərində, qədim Azərbaycan torpağında dünyaya göz açıb, Kiyev Universitetini bitirib, sonra isə Bakıya gəlib və burada fəaliyyətə başlamışdır.“

*Görkəmli alim və cərrah Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illiyi yubileyinə həsr olunmuş təntənəli gecədə çıxışından. 14.10.1995-ci il.*

“1988-ci ildə bizim soydaşlarımızı, azərbaycanlıları ermənilər zorla, silah gücünə Ermənistandan çıxarandan sonra buraya köçmüş adamlara burada ad qoydular: yerazlar. Bu adı mənfi nöqteyi-nəzərlə qoydular. Kimlər qoydu bu adı? Vəzirov kimi alçaq adamlar, onun şaykasında olan adamlar, Mütəllibov kimi alçaq adamlar, onun şaykasında olan adamlar. Anadan olduğu yerdən asılı olmayaraq, azərbaycanlı hər yerdə dəyərli adamdır.

Kəlbəcərdə, Laçında, ya da Zəngəzurda, yaxud Göyçə mahalında anadan olub, ya da Borçalıda, Bakıda, Maştağada anadan olub – fərqi yoxdur, hamısı bir millətin adamlarıdır, azərbaycanlılardır.

Millətimizin, xalqımızın içindən bunları təbəqələrə bölənlər, bir-birindən ayıranlar Azərbaycan xalqına, millətimizə ən böyük xəyanət edən adamlardır. Yerindən-yurdundan didərgin düşmüş adamlara, yaxud Ermənistandan zorla sürülüb çıxarılmış adamlara mənfi münasibət göstərmək, yaxud mənfi ad qoymaq, onlara belə

təkəbbürlü yanaşmaq ən böyük cinayətdir və deyə bilərəm ki, ədəbsizlik, mənəviyyatsızlıq, tərbiyəsizlikdir.

Mən həmişə belə fikirdə olmuşam. Azərbaycan Prezidenti kimi də bunu dəfələrlə bəyan etmişəm, bu gün də bəyan edirəm ki, biz azərbaycanlılar, Azərbaycan xalqı başqalarının torpağına göz dikməmişik. Baxmayaraq ki, keçmiş dövrlərdə Azərbaycanın torpaqlarının bir qismi cürbəcür hadisələr nəticəsində başqa əllərə keçibdir, o cümlədən indi Ermənistanın sərhədlərinin içərisində olan torpaqların bir hissəsi də dövri-qədimdən Azərbaycan torpağı, Azərbaycan diyarı olubdur: Göyçə mahalı da, Zəngəzur mahalı da, başqaları da."

*Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşdə giriş və yekun sözündən. 01.04.1996-cı il.*



"Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır.

Amma eyni zamanda Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik."

*Milli bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən. 26.05.1996-cı il.*

"Bilirsiniz ki, keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İqdırın qarsısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü-beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır."

*İqdır nümayəndələrini dinlədikdən və məktubla tanış olduqdan sonra çıxışından.*
*21.06.1996-cı il.*



"Zəngilan Azərbaycanın gözəl bir guşəsidir, qədim Zəngəzur diyarının bir parçasıdır və qədim Azərbaycan diyarıdır."

*Zəngilan rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən.*
*29.12.1996-ci il.*



"Ermənistan deyəndə o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxarıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır."

*Milli bayram – Respublika Günü münasibətilə təntənəli yığıncaqda nitqindən.*
*27.05.1997-ci il.*

"Məlumdur ki, o vaxtlar Azərbaycan Demokratik Respublikasını yaradanlar Azərbaycan torpaqlarının bir hissəsinin, o cümlədən İrəvanın Ermənistana verilməsinə razı olmuşlar. Azərbaycan Demokratik Respublikasının Baş naziri Fətəli xan Xoyskinin Tiflisdən xarici işlər naziri Həsən Hacınskiyə teleqramı bizim arxivlərimizdə vardır...

Məlumdur ki, 1920-ci ilin dekabr ayında Ermənistanda sovet hakimiyyəti qurulan zaman Azərbaycan hökumətinin adından bəyan edilmişdi ki, Zəngəzur və Naxçıvan qəzaları Ermənistanın tərkibinə verilir...

Təəssüf etmək olar ki, Naxçıvan torpaqlarının bir qismi bəzi hallarda ermənilərin əllərinə keçib, ancaq Naxçıvan öz ərazisini əsasən qoruyub saxlamışdır. Əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də heç Naxçıvanın muxtariyyəti də lazım deyildi, Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi. Ancaq Zəngəzur mahalının, o cümlədən onun bir hissəsi olan Mehri, Qafan rayonlarının – Azərbaycan torpaqlarının 1920-ci ildə Ermənistana verilməsi bizim tariximizdə Azərbaycan torpaqlarının əldən getməsinin çox ağır bir hadisəsidir."

*Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında nitqindən. 14.01.1998-ci il.*



"İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır."

*"İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxışından. 10.12.1998-ci il.*



"Biz hələ 1918-1919-cu illərdə Xalq Cümhuriyyətinin Baş naziri Fətəli Xan Xoyskinin məktubu ilə İrəvan xanlığının, İrəvanın Ermənistana verilməsini görürük. Sovet hakimiyyəti qurulduqdan sonra bu proses davam edibdir. Bunun nəticəsində, o cümlədən Zəngəzur mahalı Ermənistana verilibdir. Baxmayaraq ki, bu, qədim Azərbaycan torpağıdır. Bu da Azərbaycanın əsas ərazisi ilə Naxçıvanın ərazisini bir-birindən ərazicə ayırıbdır.
... Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq. Elə bir əsas yaratmalıyıq ki, heç bir qüvvə heç bir zaman bundan sonra Azərbaycan torpaqlarının hansısa bir hissəsini ələ keçirə bilməsin."

*Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında nitqindən. 09.02.1999-cu il.*



"Ermənistanın digər hissəsi, yəni Gürcüstana tərəf hissəsi də var. Orada da azərbaycanlılar yaşayırdılar. Yaxud, Zəngəzuru götürək. Məsələn, Sisyan, Gorus, Qafan rayonları – indi bunların adları Ermənistanda belə adlandırılır, amma onların hamısı Zəngəzura daxil olan torpaqlardır. Orada da yaşayanların əksəriyyəti azərbaycanlılar idi. Amma niyəsə nə orada, nə də bu biri yerdə azərbaycanlılara o vaxt muxtariyyət verilmədi."

*Xaricdə yaşayan həmvətənimiz, tanınmış müğənni Yaqub Zurufçu ilə görüşdə söhbətindən. 28.07.1999-cu il.*



"Azərbaycanın bir hissəsi kimi Naxçıvan sonralar ərazi nöqteyi-nəzərindən Azərbaycanın böyük hissəsindən ayrı düşmüşdür. 20-ci illərdə sərhədlər bölünərkən, Zəngəzur diyarı Ermənistana veriləndən sonra Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdü."

*Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitqindən. 12.10.1999-cu il.*



"Bəli, Zəngəzurda azərbaycanlılar çox yaşayıbdır. Vaxtilə Zəngəzurun əhalisinin əksəriyyəti azərbaycanlılar olubdur. Ancaq Sovetlər İttifaqı yaranan zaman respublikaların xəritələri çəkilib, Zəngəzur Ermənistanın tərkibində qalıbdır. Azərbaycanlılar oradan tədricən köçüblər. Amma sizin nəzərdə tutduğunuz Mehri rayonunda 1988-ci, 1989-cu illərdə, 1990-cı ilə qədər daha çox azərbaycanlı yaşayıb, nəinki erməni."

***Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqindən.***
***15.02.2000-ci il.***




"Ermənilərin azərbaycanlılara qarşı yönəldilmiş deportasiya və soyqırımı siyasəti sovet hakimiyyəti illərində beynəlmiləlçilik pərdəsi altında məharətlə maskalanaraq həyata keçirilmişdir. Sovet Rusiyasının köməyi ilə Zəngəzur və bir sıra digər Azərbaycan torpaqları Ermənistan ərazisi elan edildi. Ermənilər türk-müsəlman respublikalarına qarşı ayrı-seçkilik siyasəti yürüdən SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində 1948–1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına nail oldular."

***31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətindən.***
***29.03.2000-ci il.***



“Təəssüflər olsun ki, 1920-ci ildə Sovet hökuməti Ermənistan-Azərbaycan sərhədini elə bölübdür ki, Azərbaycan torpağı olan Naxçıvan ilə Azərbaycanın bu biri hissəsini birləşdirən Zəngəzur mahalını Ermənistana veribdir. Ora da Azərbaycan torpağıdır, orada da azərbaycanlılar yaşayıblar, amma Ermənistana verilibdir. Ona görə də Naxçıvan Azərbaycanın böyük torpağından aralı düşübdür.”

*Türkiyə Cümhuriyyətinin qazilərini Prezident Sarayında qəbul edərkən giriş nitqindən. 15.08.2000-ci il.*



“Təbiidir ki, Azərbaycan torpaqlarının hamısı Azərbaycana məxsusdur. Hətta indiki Ermənistan ərazisində olan torpaqların da böyük bir qismi Azərbaycana məxsusdur. Zəngəzur tamamilə Azərbaycan torpağıdır. Vaxtilə orada yaşayanların tam əksəriyyəti, çoxu azərbaycanlılar olublar. Amma Sovet hakimiyyəti qurulandan sonra, 1920-ci ildə Sovet İttifaqına daxil olan cümhuriyyətlərin sərhədləri qurulanda belə bölüblər, Azərbaycan torpaqlarının bir qismini Ermənistana veriblər.”

*Türkiyənin dövlət naziri Abdulhaluk Mehmet Çayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbətindən. 23.08.2000-ci il*



"Ancaq vaxtilə Azərbaycana qəsd edilibdir və Azərbaycan torpağı olan Mehri rayonu, Zəngəzur Ermənistana verilibdir. Bu da Naxçıvanı ərazi nöqteyi-nəzərdən Azərbaycandan ayırıbdır. Sovet vaxtında bunu o qədər hiss etmirdik. Çünki hamısı bir idi. İndi, xüsusən Dağlıq Qarabağ münaqişəsi başlayandan sonra bu, vəziyyəti get-gedə gərginləşdirdi."

***Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndinin bir qrup sakini ilə görüşdə söhbətindən. 28.02.2001-ci il.***



"Tarixi Azərbaycan torpaqları olan Göyçə, Zəngəzur və digər ərazilər o zamankı sovet hökuməti rəhbərlərinin köməyi ilə Ermənistana verilmiş, Dağlıq Qarabağ erməniləri muxtariyyət qazanmış və onların gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin yaradılmışdır. 1948–1953-cü illərdə ermənilər SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində azərbaycanlıların öz tarixi torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiyasına nail oldular."

***31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətindən. 27.03.2001-ci il.***



"Ancaq məlumdur ki, XX əsrdə, sovet hakimiyyəti qurulan zaman bu bölgənin sərhədləri müəyyən edilərkən, Azərbaycanın torpaqlarının bir qismi Ermənistana qatılıbdır. O cümlədən Zəngəzur və indi Naxçıvanı Azərbaycanın böyük hissəsindən ayıran Mehri rayonu. Bu, tarixi ədalətsizlikdir. Biz bunu bu gün ürək ağrısı ilə xatırlayırıq."

***Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində nitqindən. 15.06.2002-ci il.***



"XX əsrin 20-ci illərində, yəni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Mehri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır."

***Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitqindən. 17.06.2002-ci il.***



"1920-ci ildə bu sərhədləri quranda, o vaxtlar Azərbaycanın Moskvada kimi olubdur? İqtidar ermənilərin əlində idi. Azərbaycanın torpağı – Zəngəzuru, xüsusən onun Mehri hissəsini kəsib Ermənistana veriblər ki, Ermənistanın İranla sərhədi olsun. Bu tamamilə süni bir şeydir."

*Milli Mətbuat Günü münasibətilə Bakı Mətbuat Klubunun təsisçiləri ilə görüşündə nitqindən. 22.07.2002-ci il.*



"Belə bir şəraitdə, 1988-ci ildə münasibətlər kəskinləşdi və Ermənistanda həmin o qəddar millətçi qüvvələr əsrlər boyu öz doğma vətənində, doğma torpağında yaşamış insanları, azərbaycanlıları zorla öz yerlərindən çıxarmağa başladılar. Beləliklə, ermənilərin Azərbaycana qarşı təcavüz hərəkətlərinin son mərhələsi baş verdi. Siz bilirsiniz ki, bir neçə il bundan öncə, 1998-ci ildə mən ermənilərin indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı ədalətsiz hərəkətləri, azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiya olunması ilə əlaqədar fərman vermişdim. Bu deportasiyanın 50 illiyi münasibətilə öz fikirlərimi bildirmişdim. Amma bu deportasiya, azərbaycanlıların Ermənistandan deportasiyası ilk hadisə deyildi. İndiki Ermənistanın ərazisində əhalinin əksəriyyətini həmişə azərbaycanlılar təşkil ediblər. Ermənistanın paytaxtı olan Yerevanda əsrlər boyu azərbaycanlılar çoxluq təşkil ediblər. Bu hələ çar hökumətinin statistikasında da var.

Bunu heç kəs inkar edə bilməz. Ancaq, təəssüflər olsun ki, o illərdə də, XX əsrin əvvəllərində də ermənilərin azərbaycanlılara qarşı düşmənçilik münasibəti, azərbaycanlılara qarşı təcavüzü tədricən həyata keçirilirdi.

1918-ci ildə onlar azərbaycanlılarla ermənilər arasında qanlı vuruşlara şərait yaratdılar. Azərbaycanlıları Ermənistan ərazisində və başqa yerlərdə qırmağa başladılar və qırğın yaratdılar. İndiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar, demək olar ki,o vaxtdan öz doğma torpaqlarını tərk etməyə məcbur oldular. Hər il tədricən Ermənistandan qədim ata-baba torpaqlarını tərk edib Azərbaycanın ərazisinə köçmək məcburiyyətində oldular.

Beləliklə, getdikcə ermənilər azərbaycanlılara məxsus olan torpağı, Ermənistan adlanan yeri zəbt edəndən sonra orada özlərinə dövlət yaratmağa, əhalinin çoxluğunu təmin etməyə çalışdılar. Buna da nail oldular. Sonrakı dövrdə də Azərbaycana Ermənistan ərazisindən azərbaycanlıların axını davam edibdir.

Ancaq 1948-ci ildə SSRİ hökumətinin qərarı ilə təəssüflər olsun ki, o vaxtkı Azərbaycan hökumətinin də razılığı ilə – azərbaycanlıları kütləvi olaraq Ermənistan ərazisindən deportasiya etdilər. Özü də çox ağır şəraitdə–insanlara öz mal-mülklərini də yığışdırmağa imkan vermədilər. Dağlıq yerdə yaşayan adamları yük vaqonlarına doldurub, dəmir yolu ilə gətirib Azərbaycanın Muğan, Mil zonasına – çöllərə tökdülər. Məlumdur ki,deportasiya olunanların bəzisi orada qırıldı, bəzisi sonra yenə də müəyyən yollarla öz torpaqlarına, öz evlərinə qayıtdı. Çünki ürəkləri davam gətirə bilmirdi. Böyük bir qismi də Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatına qoşuldu və Azərbaycanda yaşadı.

Beləliklə, get-gedə Ermənistan ərazisində azərbaycanlıların sayı azaldı, azaldı, azaldı. Nəhayət, ermənilər 1988-ci ildə Ermənistan–Azərbaycan münaqişəsini başlayaraq, dərhal azərbaycanlıları Ermənistan ərazisindən tamamilə çıxartdılar.

O cümlədən siz də, əziz qardaşlar, bacılar, həmin o vaxt ermənilərin azərbaycanlılara qarşı bu sonuncu qəddar, düşmənçilik siyasətinin və terrorçuluq hərəkətlərinin qurbanı oldunuz. Evinizi-eşiyinizi, varınızı-dövlətinizi itirdiniz, ata-baba yurdlarını tərk etdiniz, ulu babalarınızın qəbirlərindən ayrıldınız və Azərbaycana gəldiniz. O vaxt sizin məskunlaşmağınız üçün bəzi tədbirlər görülmüşdür. Ancaq bunlar lazımi qədər olmamışdır. Açıq deyək, o qədər imkan da yox idi, müharibə gedirdi. Ancaq get-gedə, ilbəil biz sizin məskunlaşmağınızla məşğul olduq.

Mən adı çəkilən fərmanlarda 1988-ci ildə Ermənistan ərazisindən Azərbaycana zorla köçürülmüş, qaçqın düşmüş insanların, soydaşlarımızın məskunlaşması məsələsini həll etmək qərarına gəldim. Mən əvvəlki illərdə də bunu istəyirdim. Ancaq bilin, imkan, vəsait yox idi. Bunun üçün biz yaşamalı idik, iqtisadiyyatı inkişaf etdirməli, neft strategiyasını həyata keçirməli idik. Beləliklə, gəlirlərimizi artırmalı idik ki, bu cür böyük layihələrin həyata keçirilməsinə başlaya bilək.

Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm. Ancaq indi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam.

Əziz dostlar, bu qəsəbədə sizə xoşbəxt həyat arzulayıram. Arzulayıram ki, burada həmişə sevinc olsun, məhəbbət olsun, toy olsun, şənlik olsun, musiqi çalınsın.

Burada Aşıq Ələsgərin sazı səslənsin, Aşıq Ələsgərin sözləri bu dağlara yayılsın. Siz burada gözəl, xoşbəxt həyat içində yaşayasınız. Sizin hamınıza cansağlığı arzu edirəm. Sağ olun, sağ olun, sağ olun!"

***Goranboy rayonunda yeni salınmış Aşağı Ağcakənd qəsəbəsinin açılışında nitqindən. 13.09.2002-ci il.***



"Naxçıvan Muxtar Respublikası, Zəngəzur mahalı, Azərbaycanın digər hissəsi – bunlar hamısı bütöv bir ərazi olub, Azərbaycan ərazisi olubdur. Ancaq Azərbaycan xalqına düşmən olan qüvvələr məkrli niyyətlərini həyata keçirmək üçün o vaxtlar Naxçıvan ərazisi haqqında çox danışıqlar aparırdılar, çox təlaş edirdilər ki, onu Azərbaycandan ayırsınlar.

Nəhayət, 1921-ci ildə Qars müqaviləsinin, sonra Moskva müqaviləsinin nəticəsində – o müqavilələri Azərbaycan Respublikası, Rusiya, Gürcüstan və Ermənistan imzalayıblar – onların əsasında Naxçıvanın Azərbaycana mənsub olması və Azərbaycanın olması sübut edilibdir. Azərbaycanın əsas ərazisindən aralı qaldığına görə də ona muxtariyyət statusu verilibdir."

***Naxçıvan Muxtar Respublikasının Bakıdakı nümayəndəliyinin yeni binasının açılış mərasimində nitqindən. 11.10.2002-ci il.***



"Azərbaycanın Rusiya və İran arasında bölünməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, 1905-ci və 1918-ci illərdə erməni daşnaklarının azərbaycanlılara qarşı törətdiyi qırğınlar, 20-ci illərdə Zəngəzurun ermənilərə verilməsi, Qarabağ ərazisində erməni muxtariyyətinin yaradılması, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistandan deportasiyası vahid strateji planın tərkib hissəsi idi. Ötən əsrin 80-ci illərinin sonunda SSRİ rəhbərliyinin təhriki ilə Ermənistanın Azərbaycana yeni ərazi iddiaları irimiqyaslı müharibə, 20 faiz Azərbaycan torpaqlarının erməni hərbi birləşmələri tərəfindən qəsb edilməsi, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. 1992-ci ilin fevralında törədilmiş Xocalı faciəsi isə insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və anasızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır. Yüzillər boyu davam edən bu şovinist və davakar siyasət nəticəsində əzəli Azərbaycan torpaqları təcavüzkar qonşular tərəfindən qəsb olunmuş, on minlərlə soydaşımız vəhşicəsinə öldürülmüş, minlərlə maddi və mənəvi mədəniyyət abidələri vandallıqla dağıdılmışdır. Keçən dövrdə mütəmadi olaraq erməni xalqının geniş dairələri azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə olunmuş, kütlənin şüurunda "türk-azərbaycanlı" düşmən obrazı yaradılmış, bu məqsədə xidmət edən "mədəni- milli cəmiyyətlər", terrorçu təşkilatlar şəbəkəsi qurulmuşdur."

*31 Mart – Azərbaycanlıların Soyqırımı günü münasibəti ilə Azərbaycan xalqına müraciətindən. 27.03.2003-cü il.*



## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqlərində Qərbi Azərbaycan məsələsi

"Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948–1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir."

*31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətindən. 29.03.2005-ci il.*

"Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur, bizim torpağımızdır. Yəqin, onu da yaxşı bilirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu, bizim torpağımızdır."

*Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində nitqindən. 14.08.2006-cı il.*



"Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır."

*Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda çıxışından.*
*09.03.2007-ci il.*




"İndiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvan şəhərini Ermənistana bağışlamışdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər."

*Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən.*
*17.01.2008-ci il.*



“Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Halbuki, bugünkü Ermənistan əzəli Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim torpaqlarımızdır. Ancaq buna baxmayaraq, biz ölkələrin ərazi bütövlüyü prinsipini müdafiə edirik. Mən əminəm ki, biz istədiyimizə nail olacağıq.”

*Bakıda məcburi köçkün ailələri üçün tikilmiş yaşayış binaları kompleksinin istifadəyə verilməsi mərasimində çıxışından. 17.11.2009-cu il.*



“Hamı yaxşı bilir ki, indiki Ermənistan əzəli Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı – bütün bunlar Azərbaycan torpaqlarıdır. 1918-ci ildə İrəvan Ermənistana bağışlandı. O tarixdən 100 il keçməmiş bizə qarşı yeni iddia qaldırılır. Azərbaycan torpaqlarında bir erməni dövləti yaradıldı.”

*Goranboy rayonuna səfəri çərçivəsində məcburi köçkünlər üçün salınan yeni qəsəbənin açılışında çıxışından. 20.11.2009-cu il.*



“Ermənilər öz müqəddəratını artıq təyin ediblər. Onlar Ermənistan dövlətinə malikdirlər, baxmayaraq ki, bu dövlət də tarixi Azərbaycan torpaqlarında yaradılıb. Bu, hamıya aydındır. 1918-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra, növbəti gün Azərbaycan Demokratik Respublikası qərar qəbul etmişdir ki, İrəvan şəhəri paytaxt məqsədi ilə Ermənistana verilsin. İrəvan şəhəri azərbaycanlıların yaşadığı İrəvan xanlığının şəhəri idi. Tarixə gəldikdə, bu belədir. Onlar artıq Azərbaycan torpaqlarında öz dövlətini yaradıblar.”

*Estoniyaya dövlət səfəri çərçivəsində Estoniyanın Xarici İşlər Nazirliyində mühazirə ilə çıxışından. 07.04.2010-cu il.*




“Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur.”

*İstanbulda Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında çıxışından. 16.09.2010-cu il.*




“Birinci erməni dövləti 1918-ci ildə Azərbaycan torpaqlarında - İrəvan xanlığı, Zəngəzur mahalı ərazilərində yaradılmışdır.”

*Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqindən. 20.10.2010-cu il.*

"Mən dəfələrlə söyləmişdim ki, bugünkü Ermənistan-xəritədə Ermənistan Respublikası adlandırılan ərazi əzəli Azərbaycan torpağıdır. Bu, həqiqətdir. Əlbəttə, Zəngəzur, İrəvan xanlığı bizim torpaqlardır! Orada azərbaycanlılar əsrlər boyu yaşamışlar. Ermənilər müəyyən bölgələrdə olublar. Amma onlar XIX əsrdə kütləvi şəkildə köçürülmüşlər."

*Yevlax şəhərində 1 nömrəli orta məktəbin yeni binasının açılış mərasimində nitqindən. 14.10.2010-cu il.*



"Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır."

*Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimində çıxışından. 07.11.2010-cu il.*



"Bügünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Bu tarixi həqiqətdir. Biz bu tarixi yaxşı bilirik. İrəvan xanlığında yaşayanların əksəriyyəti azərbaycanlılar idi, Zəngəzur mahalı Azərbaycandan zorla qopardılıb ki, böyük türk dünyasını

parçalasınlar və elə də oldu. Ancaq vaxt gələcək, bu ədalətsizliklər aradan qaldırılacaqdır."

*Müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini qəbul edərkən çıxışından. 21.04.2011-ci il.*



"Alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır.

Çünki əfsuslar olsun ki, dünya birliyi demək olar bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır.

...Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, bütün türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb."

*Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında giriş nitqindən. 26.04.2011-ci il.*



“Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin.

hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir.”

*Dünya Azərbaycanlılarının III qurultayında nitqindən. 05.07.2011-ci il.*



“Baxmayaraq ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Mənim tövsiyələrimlə əlaqədar alimlərimiz bu tarixə dair gözəl kitablar, elmi əsərlər yaratmışlar. Xüsusilə, İrəvan xanlığı bizim qədim tarixi torpağımızdır. İrəvan xanlığı, Zəngəzur, Qarabağ bizim ərazimizdir.

Buradan, siz xidmət apardığınız yerdən, döyüş mövqelərindən Gülüstan kəndi görünür. Həmin o Gülüstan kəndidir ki, orada müqavilə imzalanmışdır. Bu müqavilədən və Türkmənçay müqaviləsindən sonra ermənilər kütləvi şəkildə indiki İran ərazisindən buraya köçürülmüşlər."

*Goranboy rayonunda təmas xəttindəki "N" saylı hərbi hissədə hərbçilərlə görüşündə söhbətindən. 21.01.2012-ci il.*

"Bizim Ermənistanın bir qarış torpağında gözümüz yoxdur. Baxmayaraq ki, oralar da tarixi Azərbaycan torpaqlarıdır. İrəvan xanlığı, Zəngəzur mahalı, Göyçə mahalı bizim torpaqlarımızdır və Ermənistan bu torpaqlarda dövlət qurub."

*Türkiyənin TRT televiziya kanalına müsahibəsindən. 29.02.2012-ci il.*





“Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Bu tarixi biz yaxşı bilirik. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı - bütün bunlar bizim tarixi torpaqlarımızdır.”

***Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik nitqindən.***
***31.12.2012-ci il.***



“Erməni dövləti tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə - bütün bunlar bizim tarixi torpaqlarımızdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən İrəvanı Ermənistana bağışlamaq da heç kimin yadından çıxmayıbdır. Yəni, bu tarixi həqiqətdir.”

***Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyində nitqindən.***
***19.03.2013-cü il***

“Bugünkü Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalları bizim tarixi diyarlarımızdır.”

***Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nitqindən.***
***26.06.2013-cü il.***



“Son illərdə mənim təşəbbüsümlə alimlərimiz İrəvan xanlığı, bizim tarixi torpaqlarımız haqqında kifayət qədər dolğun və məzmunlu əsərlər yaratmışlar. Biz bu tarixi gənc nəsillərə də çatdırırıq. Məsələn, İrəvanın Ermənistanın paytaxtı elan olunmasının tarixi hesab edirəm ki, bir çoxlarına bəlli deyildi.

Biz bu məsələni qaldıranda, tarixi faktlar əsasında bu məsələyə diqqət yetirəndə, artıq bunu həm Azərbaycanda hər kəs bilir, dünyada da bilirlər ki, İrəvanın Ermənistan dövlətinin paytaxtı elan edilməsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmiş qərar əsasında olmuşdur. Ona görə, hesab edirəm ki, tarixi həqiqətləri əks etdirən böyük elmi əsərlər yaradılmalıdır. Onların bir hissəsi artıq yaradılıbdır. Ancaq hesab edirəm ki, bu məsələyə daha da ciddi diqqət verməliyik. Ermənilərin bizim tarixi torpaqlarımıza köçürülməsi məsələləri hesab edirəm ki, Azərbaycan elmində kifayət qədər işıqlandırılmayıb."

***Quba Soyqırımı Memorial Kompleksinin açılışındakı nitqindən. 18.09.2013-cü il.***




"O vaxt xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır.

Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda, böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır."

***Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən. 08.04.2014-cü il.***



“Biz imkan verməərik ki, öz ərazimizdə ikinci qondarma erməni dövlətini yaratsınlar. Birinci erməni dövləti bizim ərazimizdə, qədim Azərbaycan torpağında, İrəvan, Göyçə, Zəngəzurda qurulubdur. İkinci erməni dövləti olmayacaqdır.”

*28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda çıxışından.*
*27.05.2014-cü il.*



“Ermənilər artıq öz müqəddəratını təyin ediblər. Onlar əslində Azərbaycanın tarixi torpaqları hesabına yaradılmış Ermənistan dövlətinə malikdirlər. Bəlkə də Assambleyanın bir çox üzvü bilmir. Amma erməni nümayəndə heyəti bunu, əlbəttə, bilir ki, Rusiya imperiyasının dağılması nəticəsində 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasının ən birinci fərmanlarından biri İrəvanın paytaxt kimi Ermənistan dövlətinə verilməsi idi. Bir sözlə, onların artıq öz dövləti vardır.”

*Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında nitqindən.*
*24.06.2014-cü il.*



"Alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaratmışlar. Bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçik həcmli broşürlər də buraxılmalıdır. Hesab edirəm ki, Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Mədəniyyət və Turizm Nazirliyi birlikdə belə broşürlər hazırlamalıdırlar ki, müxtəlif dillərdə nəşr edilsin və xarici ictimaiyyətə çatdırılsın. O cümlədən İrəvanın 1918-ci ildə Ermənistana verilməsi faktları da geniş auditoriyaya məlum deyildi. Bu məsələni mən birinci dəfə qaldıranda, bu, bəziləri üçün, necə deyərlər, bir yenilik kimi görünürdü. Ancaq bu, reallıqdır, bunu hazırda Azərbaycanda hər kəs bilir və imkan düşdükcə biz bunu beynəlxalq konfranslarda, forumlarda, tədbirlərdə daim qeyd etməliyik. Çünki bu, tarixi həqiqətdir."

***Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində çıxışından. 07.07.2014-cü il.***

"Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq."

***Ağdamdakı "N" saylı hərbi hissədə çıxışından. 06.08.2014-cü il.***



"Bizim cəmiyyətimiz, xüsusilə gənc nəsil heç vaxt unutmamalıdır ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim tarixi dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir.

Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni, bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün deyil. Bu, bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq. İqtisadi, siyasi, hərbi gücümüz, demoqrafik vəziyyətimiz bunu deməyə əsas verir."

***Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş nitqindən. 10.04.2015-ci il.***



"Nəinki Dağlıq Qarabağ bizimdir, hətta bugünkü Ermənistan tarixi Azərbaycan torpaqları üzərində qurulubdur. Biz hamımız bunu yaxşı bilirik. Dünya da bunu artıq bilir. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır və biz azərbaycanlılar o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq."

***Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" saylı hərbi hissənin açılışında çıxışından. 25.06.2015-ci il.***

"Nəinki Dağlıq Qarabağ, eyni zamanda, qədim türk torpağı olan Zəngəzur da bizim əzəli torpağımızdır. XX əsrin əvvəllərində Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verməklə əslində bütün türk dünyasının coğrafi bağlılığını artıq aradan götürüblər."

***Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitindəki çıxışından. 11.09.2015-ci il.***

"Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır."

*AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda nitqindən. 09.11.2015-ci il.*



"Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb. Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaradılmışdır. Bu respublikanın qəbul etdiyi ilk qərarlardan biri Yerevanı Azərbaycandan Ermənistana vermək oldu. Ermənistanın bugünkü paytaxtı XX əsrin əvvəlində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir.

Bu gün bu şəhər tamamilə etnik təmizlənməyə məruz qalıb. Beləliklə, tarix və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir və sizin də təsəvvür edə bildiyiniz kimi, bu məsələ Azərbaycan üçün, Azərbaycanın hər bir vətəndaşı üçün bir nömrəli məsələdir. Bu faciəvi hadisələrə və bu günədək davam edən işğala baxmayaraq Azərbaycan transformasiyada böyük uğura imza ata bilmişdir."

*Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxışından. 17.11.2015-ci il.*



"Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq."

*Yeni Azərbaycan Partiyasının VI Qurultayında çıxışından. 08.02.2018-ci il.*



"Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bugünkü Ermənistanın ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu təsdiqləyən çoxsaylı kitablar, xəritələr var. O xəritələrdə indiki Ermənistanın ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Tarixi kitablarda göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti, daha doğrusu 80 faizi azərbaycanlılar olub. Bu, tarixdir, tarixi həqiqətdir. Bunu bilməyənlər də bilsinlər və ən önəmlisi Azərbaycan gəncləri bunu bilsinlər. Bilsinlər ki, indiki Ermənistanın böyük hissəsi Azərbaycanın tarixi torpağıdır. Biz bunu heç vaxt unutmuruq və unutmayacağıq."

***Novruz bayramı ümumxalq şənliyində nitqindən. 19.03.2018-ci il.***





"Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir."

***Andiçmə mərasimində nitqindən. 18.04.2018-ci il.***

"Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı."

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə çıxışından. 15.10.2019-cu il.*




"İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir."

*Tərtər Olimpiya İdman Kompleksinin açılışında çıxışından. 03.06.2020-ci il.*

"Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur."

*Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsindən. 10.05.2021-ci il.*



“Zəngəzur qədim Azərbaycan torpağıdır. Zəngəzur 1920-ci ildə Ermənistana verilmişdir. Ermənilərin bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir.”

*ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda çıxışından. 13.07.2021-ci il.*



“Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur.”

*Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşdə çıxışından. 14.07.2021-ci il.*



“Basarkeçər rayonuna Ermənistanda “Vardenis rayonu” deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona “Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı ümumi leksikonumuzda “Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın “Yerasx” kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.”

*Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı çıxışından.*
*16.08.2021-ci il.*



"Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra –1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar.

...Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür."

*Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı çıxışından.*
*16.08.2021-ci il.*



“1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi.”

*Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində çıxışından. 27.05.2022-ci il.*



“Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən bizim bunu etməyə hüququmuz var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən altı ay sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Yəni, Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır.”

*IX Qlobal Bakı Forumunun açılışında nitqindən. 16.06.2022-ci il.*




“Son vaxtlar Ermənistan rəhbərliyi yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki, müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim - Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Ona görə status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq.”

*2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışından. 15.07.2022-ci il.*



“Bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış İcma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından

danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq. Mənim tövsiyələrim, yəni, dekabrın 24-də verdiyim tövsiyələr yerinə yetirilir. Xüsusi işçi qrupu yaradılıb, verdiyim bütün tapşırıqlar və eyni zamanda, yerlərdən gələn təkliflər əsasında biz vahid konsepsiya üzərində işə başlamışıq. Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Yenə də mən orada da İcmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, biz bunu sülh yolu ilə etmək istəyirik və əminəm ki, buna nail olacağıq. Çünki bu gün bizim məkanda, ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, necə deyərlər, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır.

Mən, eyni zamanda, İcmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, onların deportasiyadan sonra boşaltdıqları kəndlərdə demək olar həyat yoxdur. İndi videogörüntülər var, digər sənədlər var, o kəndlərə gedənlər var. Görürlər ki, orada hər şey dağıdılıb və həyat yoxdur. Ona görə onların oraya qayıtmaları onların evlərini zəbt etmiş, başqa yerlərdə - Qarabağdakı kimi zəbt etmiş ermənilərə də problem yaratmayacaq. Çünki onların oraya qayıtmaları orada yaşayan ermənilərin oradan çıxarılması demək deyil. Çünki o kəndlər boşdur və biz, əlbəttə ki, əlimizdə olan bütün imkanlardan istifadə edəcəyik. Necə ki, vaxtilə Qarabağ mövzusu bütün Azərbaycan xalqını birləşdirdi və biz istəyimizə nail olduq, eyni yanaşmanı burada da görməliyik. Əlbəttə, burada media nümayəndələrinin fəaliyyətinə böyük ehtiyac var - həm ölkə daxilində, həm xaricdə. Mən bu barədə də fikirlərimi bildirmişəm. Yəni, çox geniş proqram hazırlanır. Bir şeyi də demək istəyirəm, bizim bütün proqramlarımız bütün sahələrdə bir qayda olaraq icra

edilir. Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Ona görə bu sahədə də artıq proqramın üzərində iş gedir. Əminəm ki, biz buna da nail olacağıq və tarixi ədaləti bərpa edəcəyik."

*Yerli televiziya kanallarına müsahibəsindən. 10.01.2023-cü il.*



"Tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olmuşdur. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni, Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir. Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar.

Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və

təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılılıq prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir."

*Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışından.*
*16.03.2023-cü il.*



"Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, biz Zəngəzurda və Göyçədə, İrəvanda azərbaycanlıların hüquqları haqqında danışmalıyıq və bu, qarşılıqlı şəkildə olmalıdır. Ümid edirəm ki, biz yekun mərhələyə çatacağıq. Proqnoz vermək çətindir. Mən bizdən asılı olan məsələlərlə bağlı proqnoz verə bilərəm. Ancaq biz danışıqlarla bağlı ümidliyik. Amma biz o qədər də nikbin deyil, real olmalıyıq."

*Şuşa Qlobal Media Forumunda çıxışından.*
*21.07.2023-cü il.*




"Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini

normallaşdıranda və diplomatik əlaqələr quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var.”

*“Euronews” televiziyasına müsahibəsindən. 02.08.2023-cü il.*



“Bizə qarşı 30 il ərzində etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib, bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən çoxu hazırkı Ermənistan ərazisindən deportasiya olunub.”

*Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda nitqindən. 29.09.2023-cü il.*

“Əgər onlar saziş layihəsində Azərbaycanda yaşayan erməniləri milli azlıq kimi qeyd etmək istəyirlərsə, onda bu, qarşılıqlı olmalıdır və Ermənistandan güclə deportasiya olunmuş azərbaycanlıların Ermənistana qayıtmaq və orada yaşamaq hüquqları da əks olunmalıdır. Onların hüquq və təhlükəsizliyi Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyi kimi eyni qaydada qorunmalıdır. Əfsuslar olsun ki, erməni tərəfi bundan hər zaman imtina edib və bu addım o qədər məntiqi görünmürdü, çünki biz qeyri-adi heç nə təklif etmirik, sadəcə, qarşılıqlıq istəyirik.”

*“Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda nitqindən. 06.12.2023-cü il.*

“Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların

sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır.
...Əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtmaq istəyərsə o, necə qayıda bilər? O geri qayıdıb və Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Xeyr. O, gəlib vətəndaşlıq və ya iş icazəsi üçün müraciət edəcək. Nəyə görə bu proses burada fərqli olmalıdır? Bu, yalnız belə olacaqdır. Bələdiyyə seçkiləri vasitəsilə onlar öz nümayəndələrini seçə bilərlər və bu nümayəndələr bələdiyyələrə görə məsul şəxslər olacaq. Bütün bu məlumatlar Qarabağ ermənilərinin nümayəndələrinə antiterror əməliyyatından sonra çatdırılmışdır və biz bu məlumatın onlar tərəfindən Qarabağ əhalisinə açıqlanmadığından agah olduqdan sonra biz onu açıqladıq, dərc etdik.”

*“Euronews” televiziyasına müsahibəsindən. 09.12.2023-cü il.*



“Nə üçün 1975-ci ilin, yaxud da ki, indi 1970-ci ilin, hətta bəzi təkliflərdə 1970-ci, 1990-cı illərin xəritələri, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm. Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verilmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası

yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir. Azərbaycan xalqı əsrlər boyu orada yaşayıb və İrəvanın tarixi, yəni, bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin mövcudluğunu, çoxəsrlik mövcudluğunu təsdiqləyir. İrəvan o şəhərlərdəndir ki, sanki orada köhnə şəhər yoxdur, sadəcə olaraq, Azərbaycan şəhəri olub, o da sökülüb, dağılıb. O qərara gəldikdə isə mən hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər? Yəni, 28 mayda respublika elan olundu, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin - o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni, o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi. 1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir. Bu da tarixi faktdır, xəritələr var, XX əsrin əvvəlinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur, - şərqi, qərbi yoxdur, – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib.

…"Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri də oraya salınmalı idi" iddiası ilə həm Ermənistan, həm də onun havadarları buna çalışırdılar. Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir. Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da, - yəni, "Ermənistan plyus" belə adlandıraq bu qruplaşmanı, - çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovul-

muşdu, amma bunlar buradadır. Yəni ki, onlar, bərabər hüquqa malik deyillər. Halbuki bu, faktiki olaraq rasist bir yanaşma idi. Yəni, bizim mövqeyimiz dəyişməz olaraq qalırdı, ya bu məsələ sülh müqaviləsində əks olunmur, ya da ki, hər iki nümayəndənin hüquqları və təhlükəsizliyi əks olunacaq. Danışıqların belə səmərəsiz keçməsinin də əsas səbəbi bu idi."

***Yerli televiziya kanallarına müsahibəsindən. 10.01.2024-cü il.***



"Qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisi indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qalmış və onlara aid maddi-mədəni irs tamamilə dağıdılmışdır."

***Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsinini qəbul edərkən söylədiyi nitqindən. 01.07.2024-cü il***



"Biz onlardan açıq-aydın bəyanat gözləyirik ki, bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar, yaxud oradan didərgin salınanların övladları və nəsilləri öz tarixi torpaqlarına necə qayıda və həmin yerlərə gedə bilərlər, yaxud

həmin torpaqlarda necə yaşaya bilərlər. Üstəlik, bizdə olan kifayət qədər mötəbər məlumatlara görə, azərbaycanlıların yaşadığı kəndlərin 90 faizində indi həyat yoxdur, yəni həmin yerlər boşdur, oralar Füzuli, Ağdam və digər yerlər, habelə bütün digər Azərbaycan kəndləri 30 il ərzində dağıdıldığı kimi yerlə-yeksan edilib. Orada bəzi kəndlərdə isə erməni əhalisi məskunlaşıb. Ona görə də mən çox inanıram ki, həmin gün mütləq gələcək. Mən bu barədə dəfələrlə danışanda, təbii ki, erməni diasporunun nəzarətində olan beynəlxalq müstəvilərdə məni az qala işğalçı fikirlərə düşməkdə ittiham etməyə başladılar. Mən dedim ki, biz oraya tanklarla yox, avtomobillərlə gələcəyik. Mən bunu indi də deyirəm. Düşünürəm ki, bu mesaj, bugünkü erməni rejiminin sponsorlarının, xüsusən Parisdə və digər Qərb paytaxtlarındakıların onlara çox aydın şəkildə çatdırmalı olduğu ismarışlardan biridir. Axı, indi onlar özlərini ən qabaqcıl avropalılar kimi qələmə verirlər. Qoy onlar Avropa İttifaqına xas olanı - milli azlıqların, onların dilinin, tarixinin, mədəniyyətinin necə qorunmalı olduğunu nümayiş etdirsinlər. Bunu sözdə deyil, əməldə nümayiş etdirsinlər. Düşünürəm ki, burada təkcə Azərbaycanın istəyi, yaxud Azərbaycanın fəaliyyəti kifayət etməyəcək. Zənnimcə, bu məsələyə beynəlxalq media qurumları və beynəlxalq qeyri-hökumət təşkilatları qoşulsaydı, çox yaxşı olardı. Çünki Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və onların nəsillərinin sayı bu gün Azərbaycanda milyonlarladır. Əgər buna Azərbaycanın region kontekstindən yanaşsaq, bu, əhalisinin sayına görə ölkəmizin ən böyük regionudur.”

*Şuşada 2-ci Qlobal Media Forumunda çıxışından. 20.07.2024-cü il.*



“Əziz dostlar, bu gün şəhərimizdə çox əlamətdar bir gündür. Deyə bilərəm ki, ölkə üzrə çox əlamətdar bir gündür. Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, doğrudan da çox gözəl hadisədir.

Bildiyiniz kimi, üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən iki Sərəncam imzalamışam. Bir Sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci Sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb. Bildiyiniz kimi, Aşıq Ələsgər ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından - Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir. Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu Öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir, özü də Sovet İttifaqı miqyasında və bu yubiley münasibətilə doğma Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar.

Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi.

Bu gün bu tədbirdə iştirak edən yoldaşlar Aşıq Ələsgərin fəaliyyəti və yaradıcılığı ilə bağlı danışacaqlar. Sadəcə olaraq, onu demək istəyirəm ki, onun yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, - o vaxt hələ o təhlükələr tam sovuşmamışdı, - yenə də öz Vətəninə qayıtmışdır.

Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır - 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar.

Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan,

Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir. Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır.

İşğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səsləndirilirdi. Bəzi hallarda bu fikirləri səsləndirənlər bəlkə də səmimi idilər, bəzi hallarda bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq üçün edirdilər. Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin

tam bərpa olunması, - mən bunu bilirəm, - Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük. Əslində, birinci həftələr, birinci aylar ərzində bizə qarşı nə qədər əsassız ittihamlar irəli sürülürdü, bizə sanksiyalar tətbiq edildi. Daha böyük sanksiyaların tətbiq edilməsi üçün böyük dövlətlər, - hər halda, özlərini belə sayanlar, - bizə qarşı müxtəlif beynəlxalq platformalarda açıq hücuma keçmişdilər, soyuq müharibə başlamışdır. Bu gün də bu, davam edir. Antiterror əməliyyatının ildönümü ərəfəsində biz yenə də nə qədər genişmiqyaslı şər, böhtan kampaniyası ilə üzləşdik. Bu, bizim iradəmizə təsir edə bilər? Heç vaxt! Çünki bizim işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Əslində, bu, Azərbaycan xalqının işidir. Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur. Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi – 8 Noyabr və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi

azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik."

***Prezident İlham Əliyev Bakıda Aşıq Ələsgərin abidəsinin açılışında iştirak edib, 30.09.2024-cü il.***







"Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda – 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq."

*"Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsindən. 18.12.2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqi

### Prezident İlham Əliyevin giriş nitqi:

Mən ikinci dəfədir ki, bu binadayam. On iki il bundan əvvəl binanın açılışında iştirak etmişəm. Onu da bildirməliyəm ki, bu bina mənim göstərişimlə inşa edilmişdir və ovaxtkı məcburi köçkünlər üçün nəzərdə tutulmuşdur, Qarabağdan olan məcburi köçkünlərin təşkilatı bu binada yerləşmişdi. İkinci dəfədir ki, buradayam və artıq bu binada Qərbi Azərbaycan İcması yerləşibdir. Bu gün biz bu binanın Qərbi Azərbaycan İcmasına verilməsini qeyd edirik.

Bildiyiniz kimi, avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır.



Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır.

Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər.



Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni, bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır.



Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi – İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik.

Tariximizdə şanlı səhifələr də olub, əfsuslar olsun ki, qara səhifələr də olub. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qısamüddətli fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim.






Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, doğrudan da dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı. Ancaq, eyni zamanda, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.



O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi.



1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.



Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax,

Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.



Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdır.

Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş Qələbədə müstəsna rol oynamışdır. Azərbaycan nefti olmasaydı sovet dövləti heç vaxt qələbə qazana bilməzdi. Bunu hər kəs bilir. Bu rəqəmlər dəfələrlə səsləndirilib.



Benzinin, sürtkü yağlarının və neftin təqribən 70, 80, 90 faizi Azərbaycandan təchiz edilirdi. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm böyük vicdansızlıqdır və saxta bəhanə adı altında xalqımız növbəti deportasiyaya məruz qalmışdır.



Nəhayət 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi. Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və



dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib.



Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.




Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır.



Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.



orada faktiki olaraq normal düşüncəyə malik olan, - mən siyasi sahəni nəzərdə tuturam, - qalmayıb. Ona görə onlar revanş fikri ilə yaşayırlar. Onlar yenə də ümid edirlər ki, kimsə gələcək onların əvəzinə bizimlə müharibə aparacaq, onlar da hər zaman olduğu kimi,

Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır, - istər iqtidarda, istər müxalifətdə, - faktiki olaraq bizim üçün fərqi yoxdur.

Çünki Ermənistanda cəmiyyətin şüuru o qədər zəhərlənib, azərbaycanofobiya o qədər geniş vüsət alıb ki,









Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən bunu artıq bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm. Bu gün Laçın yolunda baş verən hadisələr növbəti antiazərbaycan isterikasına səbəb olub.



Burada təkcə Ermənistan yox, bəlkə də onlardan daha çox onların xaricdəki havadarları, onların arxasında dayanan dövlətlər yenə də Azərbaycana hansısa himayədarın arxasında gizlənərək yenə də bizə qarşı öz məkrli planlarını həyata keçirəcəklər. Bax, özümüzü bundan sığortalamaq üçün biz mütləq Azərbaycan-Ermənistan sərhədi istiqamətində daha əlverişli mövqelərə sahib olmalı idik və buna nail olduq.

Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir.

qarşı qarayaxma kampaniyası başlamışdır və biz bu gün görüşdüyümüz vaxtda BMT-də bizə qarşı növbəti təxribat hazırlanır. Artıq bir neçə gündür ki, xüsusi canfəşanlıqla seçilən bəzi ölkələr bizə qarşı növbəti çirkin planlarını həyata keçirmək əzmindədir. Amma hələ ki, bir şey əldə edə bilmirlər, neçə gündür əlləşirlər. Gələn həftə də öz səylərini göstərəcəklər. Yəni, Laçın yolunda baş verən hadisə gün kimi aydındır.



Bu, bizim legitim hüququmuzdur. Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlərimiz daşınır. O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar.

O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar. Çünki bu, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazimizdir və haqlı tələbimiz var ki, bizim ictimaiyyət nümayəndələri və ilk növbədə, ondan əvvəl dövlət qurumlarının nümayəndələri monitorinq keçirməlidirlər.




Baxmalıdırlar orada hansı işlər baş verir və o qanunsuz fəaliyyət dayandırılmalıdır. Bizim haqlı tələbimiz bundan ibarətdir. Ancaq bu gün bu vəziyyət tamamilə təhrif edilmiş tərzdə təqdim olunur. Yenə yalan, yenə iftira, yenə böhtan, kim bunu edir, biz hamımız yaxşı bilirik. Yenə də deyirəm, Ermənistan dövləti hazırda burada ilk sıralarda deyil. Amma bu, bizi heç nədən çəkindirməyəcək.

Biz artıq bunu dəfələrlə sübut etmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Heç kim bizə təsir göstərə bilməz. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək.

Hesab edirəm ki, Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün. Hesab edirəm ki, biz bu işi bundan sonra daha məqsədyönlü şəkildə aparmalıyıq. Yəni, təşkilat qurulub, icma qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək. Əlavə göstərişlər mənim tərəfimdən veriləcəkdir. Ona görə hesab edirəm ki, icma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir.

Əlbəttə ki, ölkə daxilində bu icmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Hər halda Azərbaycan çərçivəsində bu icmanın fəallığı çox önəmli ola bilər.

Bununla bərabər, hesab edirəm ki, İcmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır. Çünki biz bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, necə ki, Qarabağ həqiqətlərini çatdırmışdıq. Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da İcmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir.

Bizim bir çox ölkələrdə diaspor təşkilatlarımız var və bu il biz Şuşada tarixi Azərbaycan diaspor təşkilatlarının qurultayını keçirdik. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır. Yəni, biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır. Məsələn, indi bunu artıq dünyada da bilməyə başlayırlar və sual olunur, - bu sualı biz qoymuşuq, Azərbaycan nümayəndələri, bu məsələ ilə məşğul olan insanlar qoyublar, - indi göstərin görək İrəvanın tarixi mərkəzi haradır? Haradadır İrəvanın tarixi mərkəzi? Əgər deyirsiniz ki, guya bu, dünyanın ən qədim şəhəridir. Haradadır bunun tarixi mərkəzi? İndi baxın, görün, Cənubi Qafqazın digər ölkələrinə - Azərbaycanda, Gürcüstanda, bizim şəhərlərimizdə, əksər şəhərlərdə tarixi abidələr, tarixi mərkəzlər var. İstər Bakı olsun, Gəncə olsun, Naxçıvan, Şəki, Qəbələ, digər bütün şəhərlərdə. Bəs, necə ola bilər ki, İrəvanda tarixi mərkəz yoxdur? Qoy, bu sadə suala cavab versinlər. Cavab da gün kimi aydındır. Ona görə ki, bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar.

Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni, bütün bunlar göstərilməlidir. Yəni, siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır.

Hüquqi tərəfə gəldikdə, biz birlikdə fikirləşməliyik, beynəlxalq hüquqşünaslar cəlb edilməlidir. Azərbaycan dövləti burada da kömək göstərəcək. Onlar bu qayıdış istəyini və hüququnu beynəlxalq müstəvidə necə reallaşdırmaq lazımdır yolunu göstərəcəklər. Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edilmişdir. Siz o kitabın müəllifisiniz. Mən onu görmüşəm. Amma onu indi Azərbaycanda çox adam görübmü? Yox. Bilmirəm o, hansı tirajla dərc edilib.
Yəni, siz təşəbbüs olaraq bunu özünüz etdiniz, imkanınız çatan tərzdə. Amma biz bunu dövlət səviyyəsində etməliyik. O kitabça bütün dillərə tərcümə edilməlidir.

Onun yanında həm də elektron daşıyıcısı olmalıdır. Xarici dillərə tərcümə edilməlidir. Yəni, bu təbliğat işləri mütləq aparılmalıdır.

Hesab edirəm ki, ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir. Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni, bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə bu mövzu beynəlxalq gündəliyə daxil edilsin. Çünki bu gün Ermənistan monodövlətdir. Biz bunu deyəndə, haqlı olaraq dünya ictimaiyyətinə bildiririk ki, bu, dözülməzdir. İndi Avrasiya məkanında, yerləşdiyimiz regionda hansı ölkə monodövlətdir?
Bəs, sual olunur nə üçün məhz Ermənistan monodövlətdir?
Cavab aydındır, ona görə ki, imkan verməyiblər orada başqa xalqlar yaşasın. O xalqları oradan müxtəlif yollarla çıxardıblar, kimi öldürüblər, kimi hədələyiblər, kimin evini yandırıblar. Beləliklə, bütün başqa millətləri oradan qovub, başqasının torpağında özləri üçün dövlət qurublar.

Bu ərazidə heç vaxt Ermənistan olmayıb. İndiki Ermənistan bizim torpağımızdır. Mən bunu dəfələrlə deyəndə, mənə irad tuturlar, çalışırlar irad tutmağa ki, mənim ərazi iddiam var. Mən bunu tarixi həqiqət kimi deyirəm. Əgər kimsə başqa versiyanı təsdiq edə bilsə, gəlsin təsdiq etsin. Erməni xalqı nə vaxt bizim torpaqlarımıza köçürülüb? Hamımız yaxşı bilirik. Qarabağa nə vaxt köçürülüb? Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən köçürülüb? Necə köçürülüb və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövləti olmayıb. Əgər nə vaxtsa olubsa, - hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, - bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada, düzgün formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq.

Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur.

Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik.

Bu, çox sanballı sənəd olmalıdır. Əlbəttə ki, mütləq digər təkliflər də olacaq. Mən, sadəcə olaraq, bu gün bu görüş əsnasında gələcək fəaliyyətinizlə bağlı öz fikirlərimi bölüşmək istərdim.

Əlbəttə ki, mən sizdən də təkliflər gözləyəcəyəm. İcma həm öz imkanları daxilində, həm də Azərbaycan dövlətinin dəstəyi ilə bu işlərə, necə deyərlər, böyük yer verməlidir. Əminəm ki, biz buna nail olacağıq.

Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah.

## Prezident İlham Əliyevin yekun nitqi:

Çox sağ olun. Burada səslənən bütün təkliflər, əlbəttə ki, geniş təhlil ediləcək və mən hətta səslənməyən təklifləri də gözləyəcəyəm. Onu da bildirməliyəm ki, mən də hesab edirəm, fəaliyyət daha məqsədyönlü olmalıdır. Bu gün fərdi qaydada fəaliyyət göstərən, məsələn, qəzet redaksiyaları, ictimai birliklər artıq bir yerə yığılmalıdır. Necə ki, Qərbi Azərbaycan İcması yaradıldı, o vaxta qədər də ayrı-ayrı qurumlar var idi, ictimai təşkilatlar var idi, qeyri-hökumət təşkilatları var idi, bizim tövsiyəmizlə artıq bir yerə cəmləşdi və bu, daha məqsədyönlü fəaliyyət olacaq.



O cümlədən bütün informasiya resursları - qəzetlər, informasiya portalları, mən dediyim kimi, rəqəmsal platforma və sair məqsədyönlü şəkildə vahid konsepsiya və siyasət çərçivəsində iş aparılmalıdır və bunun əsas hədəfi bizim qayıdışımızdır. İndi Qarabağ üzrə Böyük Qayıdış Proqramı icra edilir. İnşallah, vaxt gələcək, biz ikinci Böyük Qayıdış Proqramını da işləyəcəyik.

Fürsətdən istifadə edərək mənim haqqımda dediyiniz bütün xoş sözlərinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən əvvəlki dövrdə adətən 24 dekabr günündə məcburi köçkünlərlə bir yerdə olurdum, doğum günümü heç vaxt qeyd etməmişəm, ancaq ailə üzvlərimlə qeyd etmişəm. Hesab edirəm ki, bugünkü gün istisna deyil, yenə də ailə üzvlərimlə birlikdə qeyd edirəm.

Əlli yaşım olanda Ağcabədidə məcburi köçkünlərlə bir yerdə idim və onlara demişdim ki, gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, qarşılayacaqsınız, mən sizin diyarınıza qonaq gələcəyəm və o gün gəldi.

O gündən doqquz il sonra biz artıq Şuşada idik, bayrağımız da Şuşada dalğalanırdı. Altmış yaşımı Cıdır düzündə qeyd etmişəm, ondan əvvəl azad edilmiş Hadrutda hərbi hissənin açılışında iştirak etmişəm. Bu il dekabrın 24-ü üçün əlbəttə ki, bəzi fikirlərim var idi.




Bu da bir rəmzi məna daşımalı idi. Hesab etdim ki, ən düzgün tədbir, bax, bizim bugünkü tədbirimiz olmalıdır.

Bir şeyi də deməliyəm. Qarabağ torpaqları işğal altında olanda illər keçdikcə cəmiyyətdə və ilk növbədə, məcburi köçkünlər arasında müəyyən bədbinlik əhvali-ruhiyyəsi yayılırdı, yəni, artıq bunun təzahürləri görünməkdə idi.

Mənim köçkünlərlə onlarca görüşlərim olub və son illər görürdüm ki, onların ümidləri tükənir və bu təbiidir, mən bunu təbii qəbul edirdim. Təbii ki, onlara deyə bilməzdim ki, nə vaxt, necə və nə olacaq. Çalışırdım onları inandırım ki, gün gələcək. Ancaq o təbii idi, çünki otuz ilin həsrəti istər-istəməz hər bir insana mənfi təsir göstərmişdir. Artıq iki ildir ki, biz müzəffər xalq kimi yaşayırıq. Bu gün bir daha demək istəyirəm, əsas məsələ ondadır ki, biz gərək inamımızı itirməyək. Biz inanırdıq ki, qayıdacağıq, mən bir gün də o inamı itirməmişdim, inanmalıyıq və bu müqəddəs günü yaxınlaşdırmaq üçün iş görməliyik, fəaliyyətdə olmalıyıq. Onda istədiyimizə nail olacağıq.

İşğal dövründə hətta bir çox hallarda məndə də artıq belə bir fikir formalaşmışdı ki, dünyada ədalət yoxdur. Əminəm ki, Azərbaycan xalqının mütləq əksəriyyəti bu fikrə şərik idi. Çünki bu dərəcədə ədalətsizliyi təsəvvür etmək çətin idi. Yəni, biz haqlı ola-ola bizə qarşı bu qədər ədalətsizliyin göstərilməsi heç bir çərçivəyə sığmırdı.

Ancaq inam və ədalətə inam insanların öz əllərindədir. Biz ədaləti öz gücümüzlə, şəhidlərimizin qanı-canı bahasına, qazilərimizin fədakarlığı, bütün xalqımızın, Ordumuzun birliyi sayəsində qazanmışıq, ədaləti bərpa etmişik, dünya miqyasında fövqəladə bir nümunə göstərmişik. Həm bizim hərbi əməliyyatımız bu gün dünyanın aparıcı ali hərbi məktəblərində öyrənilir, həm də xalqımızın iradəsi, əzmkarlığı, əyilməz ruhu dillər əzbəri olubdur.

İkinci Qarabağ müharibəsindən keçən bu iki ildən bir qədər çox vaxt ərzində mənim xarici həmkarlarımla çoxlu görüşlərim olub və deyə bilərəm ki, onların mütləq əksəriyyəti soruşurdu, bu necə oldu, siz bu Qələbəyə necə nail oldunuz? Mən də deyirdim ki, bunu izah etmək üçün gərək siz bizim həyatımızı yaşayasınız, bu otuz ili yaşayasınız. Mən bunu necə təsvir edə bilərəm? İnam, birlik, ədalətə inam, gücünə inam! Ona görə, bu tarixi Zəfəri qazanmış xalq kimi biz dünya miqyasında doğrudan da tamamilə yeni bir vəziyyət yaratdıq.

İnamını itirmiş xalqlar da bu gün inanırlar, bizə oxşamaq istəyirlər, bizim kimi hərəkət etmək istəyirlər, bizimlə məsləhətləşirlər.

Ona görə bu gün burada sizinlə bərabər 24 dekabr gününü qeyd edərkən mən bir daha demək istəyirəm ki, biz də, Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda, addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq. Sağ olun.



## "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda Bakı şəhərində təşkil etdiyi II beynəlxalq konfransda salamlayıram.

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən

mərhələli şəkildə zorla çıxarılmışlar. 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır.

Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi – tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir. Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal

miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir. Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır.

Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə

böyük töhfələr verəcəkdir.
Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 5 dekabr 2024-cü il*

# QƏRBİ AZƏRBAYCANLA BAĞLI TARİXİ, COĞRAFİ VƏ STATİSTİK MƏLUMATLAR

## Qərbi azərbaycanlıların yaşayış məskənləri

### 24 rayon, 284 yaşayış məntəqəsi: 13 şəhər, 12 qəsəbə, 259 kənd – 172 ancaq azərbaycanlılar yaşayan, 112 qarışıq yaşayış məntəqəsi

1. İrəvan şəhəri – 1 şəhər
2. Allahverdi rayonu - 1 şəhər, 4 qəsəbə, 6 kənd
3. Amasiya rayonu - 1 qəsəbə, 22 kənd
4. Axta rayonu - 1 şəhər, 5 kənd
5. Barana rayonu - 1 qəsəbə, 6 kənd
6. Basarkeçər rayonu - 30 kənd
7. Böyük Qarakilsə rayonu - 1 şəhər, 1 qəsəbə, 10 kənd
8. Calaloğlu rayonu - 1 şəhər, 8 kənd
9. Çəmbərək rayonu - 1 şəhər, 12 kənd
10. Düzkənd rayonu - 1 şəhər
11. Ellər rayonu - 1 kənd
12. Əştərək rayonu - 2 kənd
13. Gorus rayonu - 5 kənd
14. Hamamlı rayonu - 4 kənd
15. Karvansaray rayonu - 1 şəhər, 7 kənd
16. Keşişkənd rayonu - 15 kənd
17. Meğri rayonu - 1 şəhər, 10 kənd
18. Paşalı rayonu - 1 şəhər, 14 kənd
19. Qafan rayonu - 2 şəhər, 1 qəsəbə, 36 kənd
20. Qarakilsə rayonu - 1 şəhər, 13 kənd
21. Qəmərli rayonu - 2 kənd
22. Sərdarabad rayonu - 1 kənd
23. Vedi rayonu - 1 şəhər, 1 qəsəbə, 14 kənd
24. Vorontsovka rayonu - 1 qəsəbə, 18 kənd
25. Zəngibasar rayonu - 1 qəsəbə, 17 kənd

## Allahverdi rayonu

1. Allahverdi şəhəri (indi: Alaverdi)
2. Böyük Ayrım kəndi (indi: Medz Ayrum)
3. Buğakar kəndi
4. Gümüşxana qəsəbəsi (indi: Axtala)
5. Kiçik Ayrım kəndi (indi: Pokr Ayrum)
6. Cilizə kəndi
7. Mədən qəsəbəsi (indi: Karkop)
8. Pədik qəsəbəsi
9. Şınıx kəndi (indi: Şnox)
10. Şamlıq qəsəbəsi (indi: Şamut)
11. Yuxarı Ağtala kəndi (Verin Axtala)

## Amasiya rayonu

1. Amasiya qəsəbəsi
2. Balıqlı kəndi (indi: Zorakert)
3. Cələb kəndi (indi: Cradzor)
4. Çaxmaq kəndi (indi: Kamxut)
5. Çaybasar kəndi (indi: Aravet)
6. Çivinli kəndi (indi: Yeğnacur)
7. Daşkörpü kəndi (indi: Daşkerpi)
8. Düzkənd kəndi (indi: Alvar)
9. Ellərkənd kəndi (indi: Lorasar)
10. Hozukənd kəndi (indi: Qamaçir)
11. Göllü kəndi (indi: Ardenis)
12. Güllübulaq kəndi (indi: Byurakn)
13. Güllücə kəndi (indi: Tsaxkut)
14. İbiş kəndi (indi: Yerizak)
15. Mağaracıq kəndi (indi: Qtaşen)
16. Oxçoğlu kəndi (indi: Voxci)
17. Öksüz kəndi (indi: Darik)
18. Qarabulaq kəndi (indi: Şağik)
19. Qaraçanta kəndi (indi: Areqnadem)
20. Qaranamaz kəndi (indi: Ağvorik)
21. Qoncalı kəndi (indi: Zarişat)
22. Sultanabad kəndi (indi: Pağakn)
23. Təpəköy kəndi (indi: Berdaşen)

## Axta rayonu

1. Dədəqışlaq kəndi (indi: Pyunik)
2. Çarensavan şəhəri
3. Misxana kəndi (indi: Ankavan)
4. Qorçulu kəndi (indi: Qorqoç)
5. Təkəlik kəndi (indi: Takarlik)
6. Zar kəndi

## Barana rayonu

1. Aşağı Körpülü kəndi (indi: Haxtanak)
2. Ayrım qəsəbəsi (Konserv zavodu)
3. Baraxlı kəndi (indi: Debedavan)
4. Cücəvəng kəndi (indi: Cucevan)
5. Ləmbəli kəndi (indi: Baqrataşen)
6. Meyvəli kəndi (indi: Debedaşen)
7. Yuxarı Körpülü kəndi (indi: Zorakan)

## Basarkeçər rayonu

1. Ağkilsə kəndi (indi: Azad)
2. Ağyoxuş kəndi (indi: Zariver)
3. Aşağı Şorca kəndi (indi: Nerkin Şorca)
4. Babacan kəndi (indi: Tsapatağ)
5. Bala Məzrə kəndi (indi: Pokr Masrik)
6. Böyük Məzrə kəndi (indi: Medz Masrik)
7. Canəhməd kəndi (indi: Kutakan)
8. Caxırlı kəndi (indi: Xaçağbyur)
9. Daşkənd kəndi (indi: Ayrk)
10. Dərə kəndi (indi: Daranak)
11. İnəkdağı kəndi (indi: Tretuk)
12. Sətənəxaç kəndi (indi: Arequni)
13. Göysu kəndi (indi: Avazan)
14. Kərkibaş kəndi (indi: Vanevan)
15. Kəsəmən kəndi (indi: Arpunk)
16. Qaraiman kəndi (indi: Kaxakn)
17. Qayabaşı kəndi (indi: Geğamabak)
18. Qanlı kəndi (indi: Torfavan)
19. Qoşabulaq kəndi (indi: Şadcrek)
20. Qaraqoyunlu kəndi (indi: Norabak)
21. Hüseynquluağalı kəndi (indi: Şatvan)
22. Pəmbək kəndi (indi: Pambak)
23. Sarıyaqub kəndi (indi: Çaqadzor)
24. Subatan kəndi (indi: Geğakar)
25. Şişqaya kəndi (indi: Quqariç)
26. Tüstülü kəndi (indi: Lusakunk)
27. Yuxarı Şorca (indi: Verin Şorca)
28. Yuxarı Zağalı
29. Zərkənd kəndi (indi: Kut)
30. Zod kəndi (indi: Sotk)

## Böyük Qarakilsə rayonu

1. Arçut kəndi
2. Aşağı Kilsə kəndi (indi: Nerkin Kilisa)
3. Böyük Qarakilsə şəhəri (indi: Vanadzor)
4. Fioletovo kəndi
5. Hallavar kəndi (indi: Lernacur)
6. Heydərli kəndi (indi: Tsağkots)
7. Gözəldərə kəndi (indi: Aznvadzor)
8. Lermontovo kəndi
9. Lesosovxoz kəndi
10. Mollaqışlaq kəndi (Quşar)
11. Yuxarı kilsə kəndi (indi: Verin Kilisa)
12. Almalı-Vartana qəsəbəsi (indi: Şaumyan)

## Calaloğlu rayonu

1. Ərmənis kəndi (indi: Armanis)
2. Gərgər kəndi (indi: Qarqar)
3. Kirov kəndi (indi: Amrakits)
4. Oparçı kəndi
5. Kuybışev kəndi (indi: Urasar)
6. Qaraməmməd kəndi (indi: Bovadzor)
7. Rus Gəri kəndi (indi: Puşkino)
8. Qurtan kəndi
9. Calaloğlu şəhəri (indi: Stepanavan)

## Çəmbərək rayonu

1. Ağbulaq kəndi (indi: Axberk)
2. Ardanış kəndi (indi: Artaniş)
3. Bəriabad kəndi (indi: Barepat)
4. Cıvıxlı kəndi (indi: Çapkut)
5. Cil kəndi
6. Çaykənd kəndi (indi: Dprabak)
7. Əmirxeyir kəndi (indi: Kalavan)
8. Gölkənd kəndi (indi: Ayqut)
9. Qaraqaya kəndi (indi: Dzorvank)
10. Mixaylovka qəsəbəsi (indi: Krasnoselsk)
11. Şorca kəndi (indi: Şoğakat)
12. Toxluca kəndi (indi: Draxtik)
13. Yanıqpəyə kəndi (indi: Antarameç)

## Düzkənd rayonu

1. Gümrü şəhəri (indi: Qyumri)

## Ellər rayonu

1. Göykilsə kəndi (indi: Kaputan)

## Əştərək rayonu

1. İlançalan kəndi (indi: Artaşavan)
2. Sarımsənək kəndi

## Gorus rayonu

1. Ağbulaq kəndi
2. Qurdqulaq kəndi (indi: Vanand)
3. Şahverdilər kəndi (indi: Vorotan)
4. Şamsız kəndi
5. Şurnuxu kəndi (indi: Şurnux)

## Hamamlı rayonu

1. Qızılörən kəndi (indi: Şenavan)
2. Qursalı kəndi (indi: Arcahovit)
3. Saral kəndi (indi: Nor-Xaçakap)
4. Ağbulaq kəndi (indi: Lusağbyur)

## Karvansaray rayonu

1. Ağkilsə kəndi (indi: Çermakavan)
2. Dilican şəhəri
3. Murteyil kəndi (indi: Geğatap)
4. Polad kəndi (indi: Xaçardzan)
5. Salah kəndi (indi: Ağavnavank)
6. Göyərçin kəndi (indi: Ağavnavank)
7. Alaçıxqaya kəndi (indi: Alaçux)
8. Haqqıxlı kəndi (indi: Hovk)

## Keşişkənd rayonu

1. Amağu kəndi
2. Aysəsi kəndi (indi: Arates)
3. Çivə kəndi
4. Heşin kəndi
5. Horbadığ kəndi
6. Ələyəz kəndi (indi: Yeğegis)
7. Gədikvəng kəndi (indi: Getikvank)
8. Gülüdüzü kəndi (indi: Vardahovit)
9. Hors kəndi (indi: Geğatap)
10. Qabaxlı kəndi (indi: Qoğtanik)
11. Qalaser kəndi (indi: Qalasar)
12. Qaraqaya kəndi (indi: Sevacar)
13. Qovuşuq kəndi (indi: Hermon)
14. Sallı kəndi
15. Yelpin kəndi

## Meğri rayonu

1. Əldərə kəndi (indi: Alvank)
2. Əkərək kəndi (indi: Aqarak)
3. Kürədüzü kəndi
4. Lehvaz kəndi
5. Lök kəndi (indi: Vartanidzor)
6. Maralzəmi kəndi (indi: Txkut)
7. Meğri şəhəri
8. Nüvədi kəndi (indi: Geğatap)
9. Püşgah kəndi (indi: Nmadzor)
10. Tuğut kəndi
11. Astazur kəndi

## Paşalı rayonu

1. Çaylı kəndi
2. Qurdqulaq kəndi (indi: Boloraberd)
3. Axta kəndi
4. Gabud kəndi (indi: Kapuyt)
5. Gülüstan kəndi (indi: Nor Aznaberd)
6. Köçbək kəndi (indi: Hedzor)
7. Kotanlı kəndi (indi: Karmraşen)
8. Terp kəndi (indi: Saravan)
9. Zeytə kəndi (indi: Zedea)
10. Ağkənd kəndi (indi: Ağncadzor)
11. Cul kəndi (indi: Artavan)
12. Gomur kəndi (indi: Komk)
13. İstisu şəhəri (indi: Cermuk)

## Qafan rayonu

1. Açağu kəndi (indi: Acıllu)
2. Acıbac kəndi (indi: Acabac)
3. Aşağı Girətağ kəndi (indi: Nerkin Qiratağ)
4. Aşağı Gödəkli kəndi (indi: Barqeşat)
5. Aşağı Pürülü kəndi (indi: Verin Geğavank)
6. Baharlı kəndi (indi: Baharlu)
7. Bəkdaş kəndi (indi: Geğatap)
8. Cibilli kəndi
9. Çobanlı kəndi
10. Daşbaşı kəndi
11. Dovrus kəndi (indi: Tavrus)
12. Gərd kəndi (indi: Kard)
13. Gığı kəndi (indi: Geği)
14. Gomaran kəndi (indi: Qomaran)
15. Həçəti kəndi (indi: Voçeti)
16. Hünüd kəndi (indi: Hunut)
17. Qacaran qəsəbəsi
18. Kirs kəndi (indi: Kitsk)
19. Kurud kəndi (indi: Karut)
20. Mahmudlu kəndi (indi: Getişen)
21. Mollalı kəndi (indi: Kavçut)

22. Müsəlləm kəndi
(indi: Dzaqikavan)
23. Oxtar kəndi
24. Pəyhan kəndi
(indi: Nor Astğaberd)
25. Qafan şəhəri (indi: Qapan)
26. Qayabaşlılar kəndi
27. Qaraçimən kəndi
(indi: Ditsmayri)
28. Qaradığa kəndi (indi: Vanek)
29. Qovşud kəndi (indi: Kavçut)
30. Quşçulu kəndi
31. Şabadin kəndi (indi: Yeğek)
32. Şəhərcik kəndi (indi: Şğarşik)
33. Siznək kəndi (indi: Sznak)
34. Sünik qəsəbəsi
35. Xələc kəndi (indi: Açanan)
36. Yuxarı Gödəkli kəndi
(indi: Vardavank)
37. Yuxarı Girətağ kəndi
(indi: Verin Qiratağ)
38. Yuxarı Pürülü kəndi
(indi: Verin Geğavank)
39. Keypəşin kəndi

## Qarakilsə rayonu

1. Ağudi kəndi (indi: Ağitu)
2. Bazarçay kəndi (indi: Qorayk)
3. Comərdli kəndi (indi: Tanahat)
4. Dəstəyurd kəndi (indi: Dastakert)
5. Ərəfsə kəndi (indi: Arevis)
6. Murğuz kəndi (indi: Tsğuni)
7. Qarakilsə şəhəri (indi: Sisian)
8. Qızılcıq kəndi (indi: İşxanasar)
9. Şəki kəndi
10. Şıxlar kəndi (indi: Torunik)
11. Sofiılu kəndi (indi: Njdeh)
12. Urud kəndi (indi: Vorotan)
13. Vağudi kəndi (indi: Vağatin)
14. Noravan kəndi

## Qəmərli rayonu

1. Yamancalı kəndi (indi: Dextsut)
2. Darğalı kəndi (indi: Anastasavan)

## Sərdarabad rayonu

1. Bağçalar kəndi (indi: Bağaran)

## Vedi rayonu

1. Arazdəyən kəndi (indi: Yerasx)
2. Avşar kəndi (indi: Verin Qiratağ)
3. Bayburd kəndi
4. Böyük Vedi qəsəbəsi (indi: Vedi)
5. Çimənkənd kəndi (indi: Verin Urtsadzor)
6. Dəvəli şəhəri (indi: Ararat)
7. Kiçik Vedi kəndi (indi: Pokr Vedi)
8. Kolanlı kəndi
9. Qaralar kəndi (indi: Aralez)
10. Şidli kəndi (indi: Yeğeqnavan)
11. Şirazlı kəndi (indi: Vosketap)
12. Şıxlar kəndi (indi: Lusarat)
13. Taytan kəndi (indi: Vanaşen)
14. Xalisa kəndi (indi: Noyakert)
15. Yengicə kəndi (indi: Sisavan)
16. Cəfərli kəndi

## Vorontsovka rayonu

1. Cücəkənd kəndi (indi: Dzyunaşoğ)
2. Soyuqbulaq kəndi (indi: Paqağbyur)
3. Qızıldaş kəndi (indi: Artsni)
4. Sarıyal kəndi (indi: Apavan)
5. İlməzli kəndi (indi: Daştadem)
6. Qaraqala kəndi (indi: Noramut)
7. Qaraisə kəndi (indi: Meğvahovit)
8. Mollaevli kəndi (indi: Dzoramut)
9. Vorontsovka qəsəbəsi (indi: Taşir)
10. Dəmirçilər kəndi (indi: Qoçavan)
11. İmir kəndi (indi: Mixaylovka)
12. Qurdqala kəndi (indi: Petrovka)
13. Novoseltsovo kəndi
14. Privolnoye kəndi
15. Saratovka kəndi
16. Medovka kəndi
17. Kruqlaya Şişka kəndi
18. Bloqadamaya kəndi
19. Lorsovxoz qəsəbəsi (indi: Katnarat)

## Zəngibasar rayonu

1. Göygümbət kəndi
   (indi: Geğanist)
2. Arbat kəndi
3. Haçaparaq kəndi (indi: Xaçpar)
4. Qaraqışlaq kəndi (indi: Hayanist)
5. Mehmandar kəndi
   (indi: Hovtaşat)
6. Dəmirçi kəndi (indi: Darbnik)
7. Şöllü kəndi (indi: Daştavan)
8. Zəngilər kəndi (indi: Zorak)
9. Yuxarı Necili kəndi (indi: Nizami)
10. Aşağı Necili kəndi
    (indi: Sayat Nova)
11. Uluxanlı qəsəbəsi (indi: Masis)
12. Sarvanlar kəndi (indi: Sis)
13. Rəncbər kəndi (indi: Rancpar)
14. Reyhanlı kəndi
15. Sarıcalar kəndi (indi: Sarcalar)
16. Həbilkənd qəsəbəsi
    (indi: Kalinin qəsəbəsi)
17. Qulucan kəndi
18. Seyidkənd kəndi

## Qərbi Azərbaycanda Ermənistan tərəfindən dəyişdirilmiş rayon adları

| № | Rayonun (nahiyənin) keçmiş (əsl) adı | Dəyişdirilmiş adı | Dəyişdirildiyi tarix |
|---|---|---|---|
| 1. | Abaran | Aparan | 9.09.1930 |
| 2. | Ağbaba | Amasiya | 9.09.1930 |
| 3. | Ağin | Ani | 12.10.1961 |
| 4. | Axta | Hrazdan | 30.06.1959 |
| 5. | Allahverdi | Tumanyan | 19.09.1969 |
| 6. | Barana | Noyemberyan | 4.01.1938 |
| 7. | Basarkeçər | Vardenis | 11.06.1969 |
| 8. | Böyük Qarakilsə | Kirovakan | 3.01.1935 |
| 9. | Calaloğlu | Stepanavan | 9.09.1930 |
| 10. | Krasnoselsk | Çambarak | 1991- |
| 11. | Düzkənd | Axuryan | 7.12.1945 |
| 12. | Ellər | Abovyan | 12.10.1961 |
| 13. | Ərtik | Artik | 9.09.1930 |
| 14. | Əştərək | Aştarak | 9.09.1930 |
| 15. | Gorus | Qoris | 9.09.1930 |
| 16. | Hamamlı | Spitak | 26.09.1949 |
| 17. | Karvansara | İcevan | 9.09.1930 |
| 18. | Keşişkənd | Yeğeqnadzor | 6.12.1957 |
| 19. | Kəvər | Kamo | 13.04.1959 |
| 20. | Qafan | Qapan | Dəyişməyib |

| | | | |
|---|---|---|---|
| 21. | Qarakilsə | Sisian | 2.03.1940 |
| 22. | Qaranlıq | Martuni | 9.09.1930 |
| 23. | Qəmərli | Artaşat | 4.09.1945 |
| 24. | Qızılqoç | Qukasyan | 19.09.1969 |
| 25. | Meğri | Meğri | Dəyişməyib |
| 26. | Paşalı | Vayk | 19.04.1991 |
| 27. | Sərdarabad | Hoktemberyan | 3.01.1935 |
| 28. | Şəmşəddin | Berd | 9.09.1930 |
| 29. | Üçkilsə | Eçmiədzin | 12.03.1945 |
| 30. | Vedi | Ararat | 5.05.1968 |
| 31. | Vorontsovka | Kalinino | 3.03.1935 |
| 32. | Yelenovka | Sevan | 31.12.1937 |
| 33. | Zəngibasar | Masis | 14.01.1969 |

## İndiki Ermənistanın inzibati ərazi bölgüsü (11 mərz) və əhatə etdiyi rayonlar

7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati ərazi bölgüsü haqqında yeni qanun qəbul edilmişdir. Ermənistanın yeni inzibati ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (mərz) yaradılmışdır.

| № | İndiki Ermənistan ərazisi üzrə vahidlər (mərzlər) | Əhatə etdiyi rayonlar |
|---|---|---|
| 1. | Aragatsotn | Abaran, Karbi, Talin |
| 2. | Ararat | Zəngibasar, Vedi, Gərnibasar |
| 3. | Armavir | Sərdarabad, Üçkilsə |
| 4. | Geğarkunik | Kəvər, Çəmbərək, Qaranlıq, Basarkeçər, Yelenovka |
| 5. | Kotayk | Ellər, Dərəçiçək |
| 6. | Lori | Hamamlı, Böyük Qarakilsə, Allahverdi, Cəlaloğlu, Vorontsovka |
| 7. | Şirak | Amasiya, Qızılqoç, Düzkənd, Ağin, Ərtik |
| 8. | Syunik | Qafan, Qarakilsə, Gorus, Meğri |
| 9. | Tavuş | Karvansara, Barana, Şəmşəddin |
| 10. | Vayotsdzor | Paşalı, Keşişkənd |
| 11. | Yerevan | İrəvan |

## Qərbi Azərbaycan mahalları, onlara daxil olan rayonlar və indiki Ermənistanda yerləşdiyi ərazi vahidi

| № | Mahallar | Rayonlar | İndiki Ermənistanda yerləşdiyi ərazi vahidi (mərzlər) |
|---|---|---|---|
| 1. | Ağbaba | Amasiya | Şirak |
| 2. | Abaran | Abaran | Aragatsotn |
| 3. | Dərəçiçək | Axta | Kotayk |
| 4. | Dərələyəz | Keşişkənd, Paşalı | Vayotsdzor |
| 5. | Gərnibasar | Qəmərli | Ararat |
| 6. | Göyçə | Qaranlıq, Basarkeçər, Kəvər,Yelenovka, Çəmbərək | Geğarkunik |
| 7. | Karbi | Əştərək | Aragatsotn |
| 8. | Loru | Allahverdi, Barana,Vorontsovka, Cəlaloğlu | Lori, Tavuş |
| 9. | Pəmbək | Böyük Qarakilsə, Hamamlı | Lori |
| 10. | Zəngəzur | Qafan, Qarakilsə, Gorus, Meğri | Syunik |
| 11. | Qırxbulaq | Ellər | Kotayk |
| 12. | Səədli | Sərdarabad/ Hoktemberyan | Armavir |

| | | | |
|---|---|---|---|
| 13. | Sərdarabad | Sərdarabad/ Hoktemberyan | Armavir |
| 14. | Seyidli-Axsaklı | Abaran | Aragatsotn |
| 15. | Şəmşəddil | Karvansara, Çəmbərək, Şəmşəddin | Tavuş |
| 16. | Şörəyel | Qızılqoç, Düzkənd, Ağin, ƏrtikDüzkənd, Ağin, Ərtik | Şirak |
| 17. | Talın | Talın | Aragatsotn |
| 18. | Vedibasar | Vedi, Qarabağlar | Ararat |
| 19. | Zəngibasar | Zəngibasar | Ararat |

## Azərbaycanın rayon və şəhərləri üzrə Qərbi azərbaycanlıların məskunlaşma STATİSTİKASI (ilkin hesablama)

(Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin elektron bazası və Qərbi Azərbaycan İcmasının məlumatları əsasında)

| № | Rayon/Şəhər | Qərbi azərbaycanlıların sayı (nəfərlə) |
|---|---|---|
| | **Bakı şəhəri rayonları** | **216.907** |
| 1. | Binəqədi | 37204 |
| 2. | Sabunçu | 29125 |
| 3. | Nərimanov | 26714 |
| 4. | Xətai | 24980 |
| 5. | Suraxanı | 22659 |
| 6. | Nəsimi | 20869 |
| 7. | Nizami | 16265 |
| 8. | Yasamal | 9616 |
| 9. | Qaradağ | 6769 |
| 10. | Xəzər | 6238 |
| 11. | Səbail | 6195 |
| 12. | Pirallahı | 34 |
| | **Digər rayon və şəhərlər** | **254.685** |
| 13. | Şəmkir | 28960 |
| 14. | Sumqayıt | 26504 |

| | | |
|---|---|---|
| 15. | Abşeron | 21003 |
| 16. | Gəncə | 21145 |
| 17. | Göygöl | 17784 |
| 18. | Bərdə | 10207 |
| 19. | Goranboy | 8633 |
| 20. | Tərtər | 8599 |
| 21. | Sabirabad | 6951 |
| 22. | Salyan | 5846 |
| 23. | Gədəbəy | 5756 |
| 24. | Beyləqan | 5733 |
| 25. | Ağstafa | 5435 |
| 26. | Samux | 4837 |
| 27. | Mingəçevir | 4572 |
| 28. | Daşkəsən | 4446 |
| 29. | Yevlax | 4028 |
| 30. | İsmayıllı | 3217 |
| 31. | Qazax | 3039 |
| 32. | Saatlı | 10207 |
| 33. | Şamaxı | 2758 |
| 34. | Xızı | 2718 |
| 35. | Şərur | 2341 |
| 36. | Şəki | 2276 |
| 37. | Kəlbəcər | 2168 |
| 38. | Zəngilan | 2134 |
| 39. | Tovuz | 1982 |
| 40. | İmişli | 1923 |

| | | |
|---|---|---|
| 41. | Xaçmaz | 1681 |
| 42. | Ağcabədi | 1667 |
| 43. | Şuşa | 1666 |
| 44. | Şirvan | 1648 |
| 45. | Ağdam | 1482 |
| 46. | Oğuz | 1474 |
| 47. | Qubadlı | 1264 |
| 48. | Füzuli | 1209 |
| 49. | Culfa | 1178 |
| 50. | Kəngərli | 929 |
| 51. | Laçın | 875 |
| 52. | Ordubad | 815 |
| 53. | Kürdəmir | 812 |
| 54. | Balakən | 792 |
| 55. | Göyçay | 744 |
| 56. | Babək | 740 |
| 57. | Ağdaş | 689 |
| 58. | Şahbuz | 688 |
| 59. | Xocalı | 663 |
| 60. | Cəbrayıl | 649 |
| 61. | Ucar | 623 |
| 62. | Qax | 560 |
| 63. | Naftalan | 470 |
| 64. | Qəbələ | 455 |
| 65. | Zaqatala | 419 |
| 66. | Sədərək | 418 |

| | | |
|---|---|---|
| 67. | Xocavənd | 383 |
| 68. | Zərdab | 320 |
| 69. | Quba | 316 |
| 70. | Şabran | 315 |
| 71. | Siyəzən | 269 |
| 72. | Hacıqabul | 267 |
| 73. | Biləsuvar | 176 |
| 74. | Ağsu | 174 |
| 75. | Masallı | 125 |
| 76. | Cəlilabad | 104 |
| 77. | Naxçıvan şəhəri | 101 |
| 78. | Neftçala | 97 |
| 79. | Lənkəran | 92 |
| 80. | Qusar | 87 |
| 81. | Astara | 77 |
| 82. | Lerik | 16 |
| 83. | Xankəndi | 15 |
| 84. | Yardımlı | 14 |
| 85. | Qobustan | 11 |
| Cəmi | | 471.592 |

Qərbi Azərbaycan İcmasının Kitabxanası

QƏRBİ AZƏRBAYCAN:
tarixi yaddşımız

Bakı, Elm və təhsil, 2025.

Nəşriyyat direktoru:

Kompyuterdə yığdı:

Kompyuter tərtibçisi və
texniki redaktoru:

Qrafik dizayn:

Məryəm Rəsulbəyli

İslam Əlizadə

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: № 1
Həcmi: ___ səh.
Tirajı: 1 000

westaz.org

qerbiazerbaycan.com

Qərbi Azərbaycan İcması

Western Azerbaijan Community

Qərbi Azərbaycan TV

qerbiazetv

qaiicması

AZ1008, Bakı şəhəri,
Gülarə Qədirbəyova küçəsi 9

(+994 12) 496 25 47/48

info@ westaz.org

# QƏRBİ AZƏRBAYCAN:

# tarixi yaddaşımız





westaz.org

qerbiazerbaycan.com

Qərbi Azərbaycan İcması

Western Azerbaijan Community

Qərbi Azərbaycan TV

qerbiazetv

qaiicması

# QƏRBİ AZƏRBAYCAN:
# tarixi yaddaşımız

2025